09_27 IYUl-QARA.qxd 3/5/2026 11:04 PM Page 1

UNİKAL

№09 (2288) 6 mart 2026-cı il

Qiyməti 50 qəpik

Qurucusu: Asəf Rzayev www.unikal.az



# "Bu şərəfsizlər peşman olacaqlar" - Prezidentdən İrana xəbərdarlıq



Səh.2

## Bu ölkələr İranın Azərbaycana dron hücumlarını pislədi

*Səudiyyə Ərəbistanı İranın Azərbaycana dron hücumlarını qınayıb. Bu barədə Səudiyyə Ərəbistanının Xarici İşlər Nazirliyi bəyanat yayıb. "Səudiyyə Ərəbistanı Krallığının Xarici İşlər Nazirliyi İranın Türkiyə Respublikası və Azərbaycan Respublikasının hədəfə almaq cəhdini ən şiddətli şəkildə qınayır", - bəyanatda qeyd olunub. XİN vurğulayıb ki, iki ölkəyə qarşı bu hərəkətlərə heç bir halda bəraət qazandırıla bilməz: "Bu, beynəlxalq qanun və normalara, eləcə də mehriban qonşuluq prinsiplərinə açıq şəkildə zidd olan düşmən yanaşmaya dəlalət edir və regionda vəziyyəti daha da gərginləşdirir. Krallıq Türkiyə və Azərbaycan hökumətləri və xalqları ilə tam həmrəyliyini...*

Səh.9

## "Azərbaycan cəmiyyəti və dövləti ailə kərpiclərinin üstündə qurulub"



*Sabiq deputat Tahir Kərimli "Unikal"a müsahibə verib. O, son günlər boşanma ilə bağlı aparılan müzakirələrdən, nikahdankənar uşaqların doğulmasının hansı problemlər yaradacağından, Azərbaycanda alimentlə bağlı işlərin sayının artmasından və boşanmaların sosial məsələlərlə...*

Səh.4

## Monopolistlərin "bahalaşma oyunu" ifşa olundu



*Bu ilin yanvar ayında Azərbaycana 202 milyon 419,2 min dollar dəyərində yeyinti məhsulları idxal olunub. Açıqlanan rəsmi məlumatlardan aydın olur ki, ötən ilin eyni dövrü ilə müqayisədə ərzaq məhsullarının idxalı dəyər ifadəsində cəmi 0,3% və ya 666 min dollar azalıb.*

Səh.8

## "Azərbaycan cavab tədbirləri görmək hüququnu özündə saxlayır" - Siyavuş Novruzov



*"Ölkəmiz regionda sabitliyin və təhlükəsizliyin qorunmasına töhfə verən, qarşılıqlı hörmət və bərabərhüquqlu tərəfdaşlıq əsasında münasibətlərin inkişafını təşviq edən siyasət həyata keçirir. Azərbaycan heç vaxt öz ərazisindən hər hansı dövlətə qarşı təhdid mənbəyi kimi istifadə edilməsinə imkan verməmiş...*

Səh.8

09_27 IYUl-QARA.qxd 3/5/2026 11:05 PM Page 2



# "Efirdə səviyyə o qədər aşağı düşüb ki, utanıram getməyə" - Ağadadaş Ağayev



***"Efirdə səviyyə o qədər aşağı düşüb ki, utanıram gedib orada çıxış etməyə. Təsadüfən elə adamla efirdə olursan ki, maarifləndirici heç nə danışmaq mümkün deyil. Efirdə sənin yerin görünmürsə, sən orada olmamalısan. Özümüzü qorumalıyıq".***

"Unikal" xəbər verir ki, bu sözləri Xalq artisti Ağadadaş Ağayev "Öz aramızda" verilişində deyib:

"Efirə çox çıxmaq özü bir yanlışdır. Tamaşaçı intizarda olmalıdır. Əliboş gəlib hər gün efirə çıxmağın nə mənası var? Keçmişdəki kimi hər çıxışımız oxumaqdan ibarət olsaydı, başqa məsələ. Ağıllı adamlar verilişlərə gec-gec çıxır. Oxumayanda çox söz-söhbətlər, dedi-qodular olur. Bu millət öz dəyərləri ilə yaşayır. Bu daimi belə olmayacaq. Sıradan çıxacaq, ələnəcək. Yaxşılar qalacaq, digərləri başqa peşə dalınca qaçacaqlar. O vaxt efirə çıxırdım, 1 həftə sonra çağıra bilməzdilər. Deyirdim ki, tezdir, gözləmək lazımdır. İndi də o təbiətlə yaşayıram".

# Rəqsanə ilk dəfə qızının xəstəliyindən danışdı: "Vəziyyəti daha da pisləşmişdi"



***Müğənni Rəqsanə İsmayılova bir müddət əvvəl böyük qalmaqal yaşadığı jurnalist Səidə Bəkirqızının verilişinin qonağı olub.***

Milli.Az xəbər verir ki, o, ilk dəfə kiçik qızının xəstəliyi barədə danışıb: "Heç vaxt danışmamışam. Müalicə alır. İnşallah yaxşı olacaq. Həbsdən çıxıb evə gələndə onun dili tutuldu. İnanmadılar ki gəlmişəm məəttəl qalmışdılar. Özümü yatmışlığa vurmuşdum. Qızım əli ilə yoxlayırdı ki həqiqətən yanındayam. Oğlum nasazdı ağrayır amma o həyatı tam düşmür bilmirdi ki nə baş verir? Qızım çox başa düşür. Qızım rusdilli uşaqdır. Azərbaycanca az başa düşür. Mənim qalmaqalımda çox narahat olmuşdu, vəziyyəti daha da pisləşmişdi. Deyirdi ki, tərcümə edin, görüm anama nə olacaq?".

Sənətçinin səmimi etirafı diqqət çəkib çoxsaylı şərhlər yazılıb.

# Əməkdar artist: "Həmişə şalvar da geyinmişəm, qısa geyim də..."



***Əməkdar artist Rühəngiz Allahverdiyeva efirdə səsləndirdiyi fikirlərlə diqqət çəkib.***

Sənətçi geyim tərzi və illər öncəki imici ilə bağlı maraqlı məqamlara toxunub. O, bildirib ki, səhnə fəaliyyəti dövründə müxtəlif üslublara üstünlük verib: "Həmişə şalvar da geyinmişəm, cins şalvar da geyinmişəm. Qısa geyimlərim də olub, şəkillərimdə var. O vaxt sosial şəbəkələr yox idi, çoxları bilmir. Bilənlər bilir", - deyə sənətçi vurğulayıb.

Allahverdiyeva həmçinin zövqünün hər zaman olduğunu və xarici görünüşü ilə bağlı bir çox işi özü gördüyünü qeyd edib: "Zövqüm də var. Saç düzümümü özüm edirəm. O vaxt geyimimi, saçımı - hər bir şeyə bacarığım var idi, özüm hazırlayırdım".

Sənətkarın bu açıqlaması sosial mediada maraqla qarşılanıb və izləyicilər tərəfindən müzakirə olunub.

# Aysundan efir qadağası ilə bağlı açıqlama



***Efir qadağası tətbiq olunan sənət adamlarının siyahısına yeni adların əlavə edildiyi iddia olunur. Sosial şəbəkələrdə yayılan ikinci siyahıda Rəqsanə İsmaylova, Aysun İsmayılova və Şəbnəm Tovuzlunun da yer aldığı bildirilir.***

Məlumata görə, adıçəkilən ifaçıların televiziya proqramlarına çıxışına məhdudiyyət qoyulacaq.Məsələ ilə bağlı müğənni Aysun İsmayılova açıqlama verib. O, yayılan xəbərlərin həqiqəti əks etdirmədiyini bildirib: "Efir qadağası ilə bağlı mənə heç bir rəsmi məlumat verilməyib. Bizim bu məsələdən xəbərimiz yoxdur. İkinci siyahı yayılıb, amma orada adımız yoxdur", - deyə müğənni qeyd edib.

Qeyd edək ki, efir qadağası ilə bağlı rəsmi qurumlar tərəfindən hələlik hər hansı açıqlama verilməyib. Məsələ ətrafında müzakirələr davam edir. /musavat.com

# "Həyat yoldaşım şərt qoydu ki, heç kimlə..."



***Əməkdar artist Aqşin Abdullayev açıqlaması ilə diqqət çəkib.***

Sənətçi "Rəngarəng"də qonaq olarkən həyat yoldaşının ona qoyduğu qadağadan danışıb: "Həyat yoldaşıma söz vermişəm ki, heç kimlə duet oxumayacağam. Çünki ailə quranda tək şərti bu idi. Söz vermişəm. Ailə qurmurdu, amma tək şərti də bu idi. Duet təklifləri almışam. Özü bu yaxınlarda dedi ki, Mətanət xanımla, Flora xanımla oxuyarsan... Bizdə də tendensiya var, duet ortaqları arasında sevgi hissləri olduğuna inanırlar. Özü də deyir ki, duet oxuyursansa, qarşındakının əlindən də tutmalısan. Amma bunu qəbul etmir". (bizim.media)

# Əməkdar artist müdir təyin edildi

***Əməkdar artist Nicat Kazımov Azərbaycan Dövlət Milli Gənc Tamaşaçılar Teatrında yeni vəzifəyə təyin olunub.***

Rejissor bundan sonra teatrın yaradıcılıq şöbəsinin müdiri vəzifəsini icra edəcək.

Xatırladaq ki, Mədəniyyət Nazirliyi dövlət teatrlarının idarəetmə sisteminin təkmilləşdirilməsi istiqamətində müvafiq qərarlar qəbul edib.

Qərara əsasən, "Teatr və teatr fəaliyyəti haqqında" qanunun tələblərinə uyğun olaraq, dövlət teatrlarının əsasnamələri, strukturu və ştat cədvəlləri yenidən işlənilərək təsdiqlənib.

09_27 IYUl-QARA.qxd 3/5/2026 11:05 PM Page 3





## "Azərbaycan cavab tədbirləri görmək hüququnu özündə saxlayır" - Siyavuş Novruzov

***"Ölkəmiz regionda sabitliyin və təhlükəsizliyin qorunmasına töhfə verən, qarşılıqlı hörmət və bərabərhüquqlu tərəfdaşlıq əsasında münasibətlərin inkişafını təşviq edən siyasət həyata keçirir. Azərbaycan heç vaxt öz ərazisindən hər hansı dövlətə qarşı təhdid mənbəyi kimi istifadə edilməsinə imkan verməmiş, əksinə regionda qarşıdurmaların deyil, əməkdaşlıq və dialoqun tərəfdarı kimi çıxış edib".***

Bunu "Unikal"a açıqlamasında Milli Məclisin Regional məsələlər komitəsinin sədri, deputat Siyavuş Novruzov deyib. O bildirib ki, İran İslam Respublikası ərazisindən Naxçıvan Muxtar Respublikasına dron hücumları ilə bağlı baş verən hadisə ciddi narahatlıq doğurur:

"Bu gün günorta saatlarında İran ərazisindən Naxçıvan istiqamətində həyata keçirilmiş dron hücumları nəticəsində bir pilotsuz uçuş aparatı Naxçıvan Muxtar Respublikasının hava limanının terminal binasına, digər dron isə Şəkərabad kəndində məktəb binasının yaxınlığına düşüb. Hadisə nəticəsində hava limanının binasına ziyan dəyib, iki nəfər mülki şəxs xəsarət alıb. Azərbaycan tərəfi mülki infrastruktura və dinc əhaliyə təhlükə yaradan bu hücumu qətiyyətlə pisləyir. Azərbaycan ərazisinə qarşı həyata keçirilmiş bu addım beynəlxalq hüququn norma və prinsiplərinə, dövlətlərin suverenliyinə və ərazi bütövlüyünə hörmət prinsipinə zidd olmaqla yanaşı, regionda gərginliyin artmasına xidmət edən ciddi təhlükəli presedentdir. Rəsmi Bakı İran tərəfinin qısa müddət ərzində baş vermiş hadisəyə aydınlıq gətirməsini, bununla bağlı rəsmi izahat verməsini və bu kimi halların gələcəkdə təkrarlanmaması üçün zəruri və təxirəsalınmaz tədbirlər görməsini tələb edir. Eyni zamanda, Azərbaycan tərəfi beynəlxalq hüquqa uyğun olaraq müvafiq cavab tədbirləri görmək hüququnu özündə saxladığını da bəyan edib".

S.Novruzov qeyd edib ki, Azərbaycan hər zaman İran İslam Respublikası ilə qarşılıqlı hörmətə və mehriban qonşuluq münasibətlərinə əsaslanan əlaqələrin inkişafına önəm verib: "Tarixi, mədəni və dini bağlarla bağlı olan iki xalq arasında münasibətlərin qarşılıqlı etimad və sabitlik müstəvisində inkişaf etməsi regionun ümumi maraqlarına xidmət edir. Bu baxımdan baş vermiş hadisənin tezliklə obyektiv şəkildə araşdırılması və bu kimi insidentlərin təkrarlanmaması üçün lazımi addımların atılması xüsusi əhəmiyyət kəsb edir. Azərbaycanın mövqeyi aydındır və prinsipialdır: ölkəmizin ərazisi heç bir halda başqa dövlətlərə qarşı fəaliyyət üçün istifadə edilə bilməz və istifadə olunmur. Azərbaycan dövləti bütün qonşularına qarşı hörmət və mehriban münasibət nümayiş etdirir, regionda gərginliyin artmasına səbəb ola biləcək addımlardan uzaq durur və bu prinsiplərə sadiqliyini daim nümayiş etdirir. Azərbaycanın ərazisindən İran və ümumiyyətlə heç bir ölkə üçün təhlükə olmayıb və yoxdur. Bu prinsip ölkəmizin xarici siyasət kursunun əsasını təşkil edir və bundan sonra da dəyişməz olaraq qalacaqdır".

***Anar Kəlbiyev***

# Monopolistlərin "bahalaşma oyunu" ifşa olundu

## Dünyada ərzaq qiymətləri düşür, bizdə isə bahalaşır - Bir anormallığın sirri!

***Bu ilin yanvar ayında Azərbaycana 202 milyon 419,2 min dollar dəyərində yeyinti məhsulları idxal olunub. Açıqlanan rəsmi məlumatlardan aydın olur ki, ötən ilin eyni dövrü ilə müqayisədə ərzaq məhsullarının idxalı dəyər ifadəsində cəmi 0,3% və ya 666 min dollar azalıb.***

Qeyd edək ki, ən çox idxal olunan məhsullar arasında dəyər baxımından meyvə-tərəvəz, miqdar baxımından isə buğda üstünlük təşkil edib.

"Yeni avaz"ın məlumatına görə, bu ilin yanvar ayında Azərbaycana 37,9 min ton tərəvəz və meyvə idxal olunub. Bunların gömrük dəyəri isə 33,4 milyon dollar hesablanıb.



Nəticədə ölkəyə gətirilən idxal olunan meyvə-tərəvəzin 1 kiloqramının orta gömrük dəyəri 1,5 manat (0,88 dollar) təşkil edib. Müqayisə üçün bildirək ki, ötən ilin yanvar ayında idxal olunan meyvə-tərəvəzin 1 kiloqramının orta gömrük dəyəri 1,26 manat (0,74 dollar) təşkil edib.

Açıqlanan məlumatlardan o da aydınlaşıb ki, son bir ildə gömrük dəyəri ən çox artan süd və qaymaq olub - 27,1%. Gömrük dəyəri ən çox aşağı düşən isə düyüdür. İdxal olunan düyünün orta gömrük dəyəri son bir ildə 21,2% aşağı düşüb.

Lakin ortada daha bir ilginc məqam var: idxal olunan bəzi məhsulların gömrük dəyəri aşağı düşsə də, onların daxili bazardakı pərakəndə satış qiymətləri yüksəlib. Məsələn, ötən ilin yanvar ayı ilə müqayisədə bu ilin yanvar ayında idxal olunan kərə yağının orta gömrük dəyəri 4,9% aşağı düşüb. Ancaq ölkə daxilində idxal kərə yağının pərakəndə satış qiyməti 10% və ya 2,1 manat bahalaşıb.

Yaxud ötən ilin yanvar ayı ilə müqayisədə bu ilin yanvar ayında idxal olunan düyünün orta gömrük dəyəri 21,2% aşağı düşüb. Ancaq ölkə daxilində idxal düyünün pərakəndə satış qiyməti 1,2% və ya 9 qəpik bahalaşıb.

Digər tərəfdən, "Azpolitika"nın xəbərinə görə, yanvar ayında qlobal ərzaq qiymətləri ardıcıl beşinci dəfə azalıb. Məlumata görə, ümumi ərzaq qiymətləri indeksi dekabr ayı ilə müqayisədə 0,4 faiz, ötən ilin eyni dövrü ilə müqayisədə isə 0,6 faiz aşağı düşüb. Qiymətlərin enməsi əsasən süd məhsulları, şəkər və ət üzrə kotirovkaların ucuzlaşması ilə bağlı olub.

Belə ki, süd məhsulları üzrə qiymət indeksi 5 faiz enib. Təklifin kifayət qədər olması nəticəsində pendir və kərə yağı ucuzlaşıb. Bununla belə, Yaxın Şərq, Şimali Afrika və Asiyanın bəzi regionlarında tələbatın bərpası fonunda yağsız quru südün qiymətləri artıb.

Şəkər qiymətləri isə indeksi 1 faiz azalıb. FAO bunu cari mövsümdə qlobal təklifin artacağı ilə bağlı gözləntilərlə əlaqələndirir. Hindistanda istehsalın bərpası, Tailand üçün əlverişli proqnozlar və Braziliyada müsbət dinamika qiymətlərin aşağı düşməsinə təsir göstərib.

Təəccüblüsü odur ki, dünyada ərzaq qiymətləri artınca bizdə də kəlləçarxa qalxan, qlobal bazarlarda ucuzlaşma olunca nədənsə aşağı enmir. Bu anormallığın sirri nədədir? Necə ola bilər ki, 5 aydır qlobal bazarda bir çox əsas ərzaq məhsullarının ucuzlaşması, paralel olaraq Azərbaycana idxal olunan bir sıra ərzaq məhsullarının da gömrük dəyərinin aşağı düşməsinə baxmayaraq, marketlərdə ərzaq qiymətləri yenə də yüksək olaraq qalır?

Ekspertlərin yuxarıdakı suallara cavabları birmənalı olaraq eynilik təşkil edir. Bildirilir ki, daxildəki bazarda rəqabətin zəifliyi, idxalda inhisarçılıq, yerli iş adamlarının, yaxud xarici şirkətlərin ölkə bazarına rahat çıxış imkanlarının məhdud olması, topdansatış ticarətin müəyyən əllərdə cəmləşməsi Azərbaycanda qiymətlərin ucuzlaşmasını əngəlləyən başlıca səbəblərdir.

"Az sayda iri idxalçı bazara nəzarət edir və onlar arasında gizli razılaşmalar qiymətlərin süni şəkildə yüksək saxlanmasına imkan yaradır. Belə şəraitdə dünya bazarındakı ucuzlaşma daxili bazara ötürülmür, çünki istehlakçı üçün alternativ seçim yoxdur" deyən mütəxəssislərin fikrincə, inhisarçılığa qarşı mübarizənin gücləndirilməsi baxımından daha kəskin və effektiv addımların atılmasına ehtiyac var.

Ekspertlər onu da vurğulayırlar ki, rəqabət qiymətlər düşsün, xidmət və malın keyfiyyəti artsın deyə lazımdır. Əks təqdirdə qiymətlər yüksəlir, keyfiyyət isə azalır. Çünki bir monopolist şirkət hansısa səbəbdən zərərə uğradıqda, həmin ziyanı bağlamaq üçün təklif etdiyi mal və ya xidmətin qiymətini qaldırır, bu da öz növbəsində bazara təsir göstərir. Nəticədə hamı ondan mal alır, çünki rəqibsizdir! Ən yaxşı halda bazardakı iki-üç əsas oyunçudan biridir.

İstənilən halda, mütəxəssislərin ortaq qənaətinə görə, Azərbaycanda monopoliya - qiymətlərə birmənalı olaraq həlledici təsir göstərən amildir. Bu amili ortadan qaldırmadıqca isə eyni absurdun və anormallığın şahidi olmağa davam edəcəyik: dünyada ərzaq qiymətləri bahalaşdıqca, bizdə də qiymətlər qalxacaq, lakin dünyada ərzaq qiymətləri ucuzlaşdıqda bizdə nəinki ucuzlaşma olacaq, hətta bahalaşma müşahidə olunacaq.

Bir sözlə, bəzən obyektiv amillərlə müşahidə edilən qiymət artımları inhisarçı-işbazlar üçün fürsətdən sui-istifadəyə çevrilir və süni bahalaşma üçün zəmin hazırlayır. Ona görə də inhisarçılığa qarşı mübarizəni həm gücləndirmək, həm də genişləndirmək qaçılmaz zərurətdir.

Əks təqdirdə itirən bir yandan dövlət, o biri yandan vətəndaş, qazanan isə sadəcə və sadəcə hansısa merkantil qruplar olacaq.

***Sənan Mirzə***

# Bu ölkələr İranın Azərbaycana dron hücumlarını pislədi



***Səudiyyə Ərəbistanı İranın Azərbaycana dron hücumlarını qınayıb. Bu barədə Səudiyyə Ərəbistanının Xarici İşlər Nazirliyi bəyanat yayıb. "Səudiyyə Ərəbistanı Krallığının Xarici İşlər Nazirliyi İranın Türkiyə Respublikası və Azərbaycan Respublikasının hədəfə almaq cəhdini ən şiddətli şəkildə qınayır", - bəyanatda qeyd olunub.***

XİN vurğulayıb ki, iki ölkəyə qarşı bu hərəkətlərə heç bir halda bəraət qazandırıla bilməz: "Bu, beynəlxalq qanun və normalara, eləcə də mehriban qonşuluq prinsiplərinə açıq şəkildə zidd olan düşmən yanaşmaya dəlalət edir və regionda vəziyyəti daha da gərginləşdirir. Krallıq Türkiyə və Azərbaycan hökumətləri və xalqları ilə tam həmrəyliyini ifadə edir, iki ölkənin öz təhlükəsizliyini, hava məkanını, ərazi bütövlüyünü və vətəndaşlarını qorumaq hüququnu təsdiqləyir".

Ukraynanın Azərbaycandakı səfirliyi İranın Naxçıvana dron hücumlarını pisləyib. Diplomatik nümayəndəlik İran PUA-larının Azərbaycanın Naxçıvan Muxtar Respublikası ərazisinə hücumu barədə məlumatları diqqətlə izləyir. Ukrayna səfirliyi Azərbaycana dəstək və həmrəyliyini ifadə edib: "Hamını qlobal təhlükəsizliyə, eləcə də xalqlarımızın gələcəyinə xələl gətirən rejimlərə qarşı mübarizəni gücləndirmək üçün birləşməyə çağırırıq". Məlumatda İran dronlarının çoxdan terror alətinə çevrildiyi xatırladılıb, məhz bu silahın İran rejimi tərəfindən Ukrayna şəhərlərinə, mülki infrastruktura və dinc əhaliyə zərbələr endirmək üçün istifadə edildiyi vurğulanıb. Açıqlamada Ukraynanın xarici işlər naziri Andrey Sibiqanın "İran rejimi on illərdir bölgəni terror edir, digər ölkələrə qeyri-sabitlik gətirən terror qruplaşmalarını dəstəkləyir və maliyyələşdirir" fikirlərinə də yer verilib. "Ukrayna beynəlxalq hüquqa, ləyaqətə və insan həyatına xor baxan rejimlərin hansı təhlükə yaratdığını yaxşı bilir", - açıqlamada qeyd olunub.

Fransa səfirliyi Azərbaycana dron hücumunu pisləyib. Bu barədə Fransanın Azərbaycandakı səfiri X-də paylaşım edib. "İranın bu gün günorta saatlarında Naxçıvana qarşı həyata keçirdiyi dron hücumları Azərbaycanın təhlükəsizliyinə və ərazi bütövlüyünə qarşı qəbuledilməz bir addımdır. Bu regional sabitliyi pozan hərəkəti və beynəlxalq hüququn pozulmasını qətiyyətlə pisləyirəm. Düşüncələrim və həmrəyliyim bu hadisədən zərər çəkmiş əhali ilə, xüsusilə də, təəssüf ki yaralanmış 4 nəfərlədir. Onların tezliklə sağalmasını arzulayıram".

İordaniya Xarici İşlər Nazirliyi (XİN) İranın bu gün Azərbaycana pilotsuz uçuş aparatları (PUA) ilə endirdiyi zərbələri şərh edərkən bildirib ki, Əmman ölkənin suverenliyinin və Azərbaycan vətəndaşlarının təhlükəsizliyinin qorunması üçün Bakının addımlarını dəstəkləyir. Bu barədə İordaniya XİN bəyanat yayıb. Nazirlik İranın Türkiyə və Azərbaycana zərbələr endirmək cəhdlərini qətiyyətlə pislədiyini qeyd edib. "İordaniya iki dövlətin suverenliyinin kobud şəkildə pozulması və regionun təhlükəsizliyi ilə sabitliyinə təhlükə yaradan təhlükəli eskalasiya olan bu hücumları (İran tərəfindən - red.) qəbul etmədiyini və qətiyyətlə pislədiyini vurğulayıb. İordaniyanın qardaş Türkiyə və Azərbaycanla tam həmrəyliyini, öz ölkələrinin suverenliyini, təhlükəsizliyini və vətəndaşlarının təhlükəsizliyini qorumaq üçün atdıqları bütün addımları dəstəklədiyini bəyan edirik", - qurumdan bildirilib.

GUAM-ın Daimi Beynəlxalq Katibliyi İranın döyüş dronlarının Azərbaycan ərazisindəki mülki infrastruktura və obyektlərə nizamsız hücumlarını qətiyyətlə pisləyib. Bu barədə katibliyin "X" sosial şəbəkəsindəki bəyanatında bildirilib. "Biz Azərbaycan Respublikasının xalqına və hakimiyyətinə rəğbətimizi və həmrəyliyimizi ifadə edirik. Beynəlxalq hüququn norma və prinsiplərinə sadiq olduğumuzu bir daha təsdiqləyirik və GUAM-a üzv dövlətlərin təhlükəsizliyinə, ərazi bütövlüyünə və suverenliyinə qarşı istənilən təhdid və çağırışlara qarşı durmaqda vahidik", - məlumatda bildirilib.

Küveyt Dövləti İranın Türkiyə Respublikasını və Azərbaycan Respublikasını hədəf almasını qətiyyətlə pisləyib və bunu sərt şəkildə qınayıb. Bu barədə Küveyt Xarici İşlər Nazirliyi bəyanat yayıb. Bildirilib ki, Küveyt XİN bu cür cəhdləri beynəlxalq qanunların və BMT nizamnaməsinin açıq şəkildə pozulması hesab edir. Nazirlik həmçinin Küveyt Dövlətinin Türkiyə Respublikası və Azərbaycan Respublikası ilə tam həmrəy olduğunu vurğulayıb və onların suverenliyini, təhlükəsizliyini və sabitliyini qorumaq üçün gördükləri bütün tədbirləri dəstəklədiyini bildirib.

Qətər İranın Azərbaycana dron hücumlarını pisləyib. Bu barədə Qətər Xarici İşlər Nazirliyi bəyanat yayıb. "Qətər dövləti qardaş Türkiyə Respublikasının ballistik raketlə və Azərbaycan Respublikasında bir hava limanının İran dronları ilə hədəfə alınmasını kəskin şəkildə pisləyir. Bu düşmən hərəkətlər təhlükəli eskalasiya deməkdir və İranın məsuliyyətsiz hücumları ilə dövlətlərin suverenliyinin pozulmasıdır. Bu, həm də regionda sülh və stabilliyə birbaşa təhdiddir", - bəyanatda bildirilib.

İsrail İranın Naxçıvana dron hücumlarını pisləyib. İsrail xarici işlər nazirinin müavini Şaren Haskel "X" hesabında bununla bağlı paylaşım edib. "Bu səhər Azərbaycandan İranın cilovunu itirdiyinə dair daha bir sübut aldıq. Ayətullah rejimi qonşu ölkənin mülki hava limanına pilotsuz uçuş aparatları ilə zərbə endirib. Purim bayramı artıq bitib və bütün maskalar düşüb", - o bildirib. Nazir müavininin sözlərinə görə, bu hadisə göstərir ki, dünya ona dur deməyincə, İran dayanmayacaq.

5 mart 2026-cı il tarixində Qazaxıstan Respublikasının xarici işlər naziri Yermek Koşerbayev Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramova zəng vurub. XİN-dən verilən xəbərə görə, nazir Ceyhun Bayramov 5 mart tarixində mülki infrastruktur və şəxslərə zərərlə müşayiət olunan İran İslam Respublikası tərəfindən Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası ərazisinə qarşı dronla həyata keçirilmiş hücumların suverenliyimizə və ərazi bütövlüyümüzə zidd olduğunu vurğulayıb.İran İslam Respublikasından qeyd olunan məsələyə aydınlıq gətirilməsini, izahat verilməsini, üzrxahlıq edilməsini, bu kimi halların təkrarlanmaması üçün zəruri təxirəsalınmaz tədbirlər görülməsini tələb etdiyimiz Qazaxıstan tərəfinin diqqətinə çatdırıb. Qazaxıstan naziri bu hücumlardan dərin narahatlıq ifadə edib, vəziyyətin daha da gərginləşməyəcəyinə ümidvar olduğunu bildirib.

Latviyanın Bakıdakı səfirliyi İranın bu gün Azərbaycanın Naxçıvan Muxtar Respublikasının ərazisinə pilotsuz uçuş aparatları (PUA) ilə endirdiyi zərbələri pisləyib. Bu barədə Latviyanın Azərbaycandakı diplomatik missiyasının "X" sosial şəbəkəsindəki paylaşımında bildirilib.

"Latviyanın Azərbaycandakı səfirliyi Naxçıvan Muxtar Respublikasında hava limanının zədələnməsi və mülki şəxslərin xəsarət alması ilə nəticələnən PUA-nın hücumlarını qətiyyətlə pisləyir, bu da beynəlxalq hüquq prinsiplərinin pozulmasıdır. Biz Azərbaycanla həmrəyliyimizi ifadə edirik və regionda sülh və təhlükəsizliyə dəstəyimizi təsdiqləyirik", - diplomatik missiyadan bildirilib.



# Azərbaycan-İran sərhədində yük avtomobillərinin hərəkəti tam dayandırıldı

***Nazirlər Kabineti Azərbaycan-İran dövlət sərhədindən yük avtomobillərinin hərəkətinin dayandırılması ilə bağlı qəbul edilən qərara dair məlumat yayıb.***

Bu barədə "Unikal"a Nazirlər Kabinetindən məlumat verilib.

"Məlumat verildiyi kimi, 5 mart tarixində Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikasına İran İslam Respublikasının ərazisindən mülki infrastruktur hədəf alınmaqla pilotsuz uçuş aparatları ilə hücumlar həyata keçirilib.

Naxçıvan Muxtar Respublikasının Beynəlxalq Hava Limanı, məktəb və digər istiqamətlər İran tərəfindən atəşə məruz qalıb. Hücumlar nəticəsində bir neçə mülki şəxs xəsarət alıb, hava limanının terminal binasına ziyan dəyib.

Beynəlxalq hüququn norma və prinsiplərinə zidd olan bu hücumlar nəticəsində yaranmış mövcud vəziyyət nəzərə alınaraq, Azərbaycan-İran dövlət sərhədində bütün sərhəd-keçid məntəqələrindən yük avtomobillərinin hərəkətinin (o cümlədən tranzit məqsədilə yük avtomobillərinin hərəkətinin) müvəqqəti olaraq tam dayandırılması barədə Nazirlər Kabineti tərəfindən müvafiq qərar qəbul edilib", - məlumatda qeyd olunub.

# Əraqçi Ceyhun Bayramova zəng etdi

***5 mart 2026-cı il tarixində İran İslam Respublikasının xarici işlər naziri Seyid Abbas Əraqçi Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramova zəng vurub.***




XİN-dən "Unikal"a verilən xəbərə görə, telefon danışığı zamanı nazir Ceyhun Bayramov, İran İslam Respublikası tərəfindən Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası ərazisinə edilmiş dron hücumlarını qətiyyətlə pisləyib, bu hücumlarla bağlı qəti etirazını bildirib. Azərbaycan ərazisinə bu hücumların beynəlxalq hüququn norma və prinsiplərinə zidd olduğu, regionda gərginliyin artmasına xidmət etdiyini vurğulayıb. İran naziri Naxçıvan Muxtar Respublikası ərazisinə dron hücumları ilə bağlı narahatlığını ifadə edib. İran tərəfinin və hərbçilərin bu hadisə ilə bağlı araşdırma başladığını bildirib. İran naziri yaralanan mülki şəxslərə şəfa diləyib.

İran tərəfindən hücumla bağlı üzr istənilməsini, araşdırmaların nəticələrinə dair qısa müddət ərzində izahat verilməsini, bu kimi halların gələcəkdə təkrarlanmaması üçün zəruri tədbirlər görülməsini gözlədiyimiz diqqətə çatdırılıb.

09_27 IYUl-QARA.qxd 3/5/2026 11:07 PM Page 5



# İlham Əliyev dəyişikliyi təsdiqlədi



***Azərbaycanda investisiyanın dövlət tərəfindən alınmasının yeni əsasları təsdiqlənib.***

"Unikal" xəbər verir ki, Prezident İlham Əliyev bununla bağlı "İnvestisiya fəaliyyəti haqqında" qanuna dəyişikliyi imzalayıb.

Yeni dəyişikliklə investisiyanın dövlət tərəfindən alınmasının yeni bir əsasını müəyyən edilib. Bu strateji əhəmiyyətə malik investisiyalara münasibətdə Azərbaycan dövlətinin və xalqının mənafelərinə zərər vuran və ya Azərbaycanın milli maraqlarına zidd olan müstəsna halların qarşısını almaq məqsədilə investisiyaların dövlət tərəfindən alınmasıdır.

Beləliklə, strateji əhəmiyyətə malik olan investisiyaların Azərbaycan dövlətinin və xalqının mənafelərinə zərər vuran və ya Azərbaycanın milli maraqlarına zidd olan müstəsna halların qarşısını almaq məqsədilə dövlət tərəfindən alınmasının hüquqi əsasını formalaşdırılıb. Həmin məqsəd üçün investisiyaların alınması ümumi qaydada, yəni investisiyaların dövlət tərəfindən alınması əvəzində investorlara kompensasiya ödənilməklə həyata keçiriləcək.

Həmçinin qeyd olunan məqsəd üçün strateji əhəmiyyətə malik olan investisiyaların dövlət tərəfindən alınması Azərbaycan qanunları ilə həyata keçiriləcək.

# Ərdoğan İlham Əliyevə zəng etdi



***Martın 5-də Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.***

"Unikal" xəbər verir ki, Türkiyə Prezidenti İran İslam Respublikası tərəfindən Naxçıvan Muxtar Respublikasına edilən dron hücumunu qınadığını deyib, qardaş Azərbaycan xalqına dəstəyini ifadə edib.

Dövlətimizin başçısı telefon zənginə və mövqeyinə görə Rəcəb Tayyib Ərdoğana minnətdarlığını bildirib.

# Fidan və Bayramov Naxçıvana hücumu müzakirə etdilər

***Türkiyə və Azərbaycanın xarici işlər nazirləri Hakan Fidan və Ceyhun Bayramov arasında telefon danışığı olub.***

"Unikal" xəbər verir ki, bu barədə Türkiyə KİV yazıb. Telefon danışığı zamanı İranın Naxçıvana hücumu müzakirə olunub.



Qeyd edək ki, bu gün Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikasına İran İslam Respublikasının ərazisindən dron hücumları həyata keçirilib. 1 ədəd dron Naxçıvan Muxtar Respublikasının Hava Limanının terminal binasına, digər bir dron isə Şəkərabad kəndində məktəb binasının yaxınlığına düşüb. Hava Limanının binasına zərər dəyib, 4 nəfər xəsarət alıb.

***Ağarza Elçinoğlu***

Baş redaktor:
**Zaur Əhməd**

Turanbank" ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Son dəqiqə" MMC mətbəəsində çap olunmuşdur

Sifariş 252.
Tiraj:2000

# "Bu şərəfsizlər peşman olacaqlar" - Prezidentdən İrana xəbərdarlıq

***Azərbaycan Prezidenti İlham Əliyevin sədrliyi ilə martın 5-də Təhlükəsizlik Şurasının iclası keçirilib.***

"Unikal" xəbər verir ki, dövlət başçısı tədbirdə çıxış edib. Prezident İlham Əliyevin çıxışı: "Bu gün İran tərəfindən Azərbaycan ərazisinə qarşı, Azərbaycan dövlətinə qarşı terror aktı törədilmişdir. Naxçıvan Muxtar Respublikasının ərazisini İran dövləti pilotsuz uçuş aparatları ilə atəş altına salmışdır. Atəşin hədəfləri mülki obyektlər idi. Naxçıvan Beynəlxalq Hava Limanı, onun terminal binası, məktəb və digər istiqamətlər İran tərəfindən namərd atəşə məruz qalmışdır. Azərbaycan dövləti bu çirkin terror aktını qətiyyətlə pisləyir, bunu törədənlər dərhal məsuliyyətə cəlb edilməlidir. Azərbaycan tərəfinə İran rəsmiləri tərəfindən izahat verilməlidir, üzr istənilməlidir və bu terror aktını törədənlər cinayət məsuliyyətinə cəlb edilməlidir.



Birinci dəfə deyil ki, İran dövləti Azərbaycana və azərbaycanlılara qarşı terror aktları həyata keçirir. Hamımız yaxşı xatırlayırıq ki, bir müddət bundan əvvəl Azərbaycanın Tehrandakı səfirliyi terror aktına məruz qalmışdır. Səfirliyə hücum çəkmiş İran xüsusi xidmət orqanları tərəfindən təlimatlandırılmış şəxs Azərbaycan vətəndaşlarına qarşı qanlı terror aktı törədib. Bunun nəticəsində bir vətəndaş həlak olub, bir vətəndaş isə ağır yaralanıb. Onu da bildirməliyəm ki, Azərbaycanın xüsusi xidmət orqanlarının əliyalın nümayəndəsi avtomat "Kalaşnikov"la, "Molotov" kokteyli və balta ilə silahlanmış terrorçunu zərərsizləşdirib. O vaxt da bizdə şübhə yox idi ki, bunu törədən İran dövlətidir. Çünki bu terror aktı həm səfirliyin içində, həm səfirliyin ətrafında, təqribən 40 dəqiqəyə qədər davam edirdi. Bu 40 dəqiqə ərzində bir dənə də olsun nə təhlükəsizlik, nə polis nümayəndəsi səfirliyə yaxınlaşmayıb. Aydın məsələ idi ki, Azərbaycanı qorxutmaq, Azərbaycana qarşı çirkin əməllərini həyata keçirmək üçün bu terror aktı İranın dövlət qurumlarının ən rəhbər mərtəbələrindən sifariş edilmişdir. Bildiyiniz kimi, o vaxt Azərbaycan bu hadisəyə çox sərt reaksiya vermişdi, Azərbaycan səfirliyi İrandan təxliyə edilmişdi, bütün diplomatik əlaqələr dayandırılmışdı. İran tərəfi bizdən üzr istəməyə, öz günahını etiraf etməyə məcbur olmuşdu. O terror aktını törədənə bizim təkidimizlə ən ağır cəza da verilmişdi. Hətta uzun müddət bu cəzanı həyata keçirməyə maraq göstərməyən, hətta cinayətkarı xilas etməyə çalışan İran dövləti məcbur olub terrorçunu Azərbaycan nümayəndələrinin gözü qarşısında edam etmişdi. Bu dəfə də cavab eyni olacaq. Biz Azərbaycana qarşı törədilmiş bu əsassız terror aktı ilə, təcavüzlə barışmayacağıq. Silahlı Qüvvələrimizə təlimat verildi ki, cavab tədbirləri hazırlansın və həyata keçirilsin.

Dəfələrlə İran tərəfinə, xüsusilə keçən il baş vermiş toqquşmalardan sonra bildirilmişdir ki, Azərbaycan ərazisindən heç bir qonşu dövlətə qarşı istifadə olunmayacaq. Biz buna imkan verməyəcəyik, necə ki, heç vaxt bu günə qədər imkan verməmişik. Düzdür, keçən ilin yay aylarında və ondan sonrakı dövrdə İrandan bizə əsassız ittihamlar irəli sürülürdü. İranın dövlət qurumlarının nəzarətində olan media resursları Azərbaycanı ləkələmək, İranda yaşayan soydaşlarımızın fikrini dəyişdirmək üçün Azərbaycana qarşı çirkin, şər-böhtan kampaniyası aparırdı. Çünki yaxşı bilirlər ki, bu gün müstəqil Azərbaycan dövləti İranda yaşayan bir çox azərbaycanlılar üçün də ümid yeridir. Yəni bizi ləkələmək, bizi şərləmək, gözdən salmaq İran ictimaiyyəti qarşısında bu məqsədi güdürdü. Çünki bunun heç bir əsası yox idi. Azərbaycan nə o vaxt, nə də bu dəfə İrana qarşı olan əməliyyatlarda iştirak etmir və etməyəcək. Çünki bizim mövqeyimiz bundan ibarətdir. Bizim qonşu ölkələrə qarşı hər hansı bir əməliyyat keçirməyə nə marağımız var, nə də siyasətimiz buna imkan verir. Biz öz ərazi bütövlüyümüzü qoruyuruq və qorumuşuq. Necə ki, Ermənistan işğalına son qoymuşuq, istənilən şər qüvvəyə qarşı öz gücümüzü göstərməyə hazırıq və İranda bunu unutmasınlar. Onların törətdiyi bu terror aktı bütün başqa çirkin amillərlə yanaşı, böyük nankorluq nümunəsidir. Son hadisələr baş verən kimi biz onlara xəbər göndərdik, başsağlığı verdik. Xarici işlər naziri mənim göstərişimlə həmkarı ilə danışdı. Mən onların səfirliyinə gedib başsağlığı vermək üçün öz mövqeyimi bildirdim. Halbuki məndən başqa heç bir dövlət başçısı İranın heç bir səfirliyinə getməyib. Yəni bunu qiymətləndirməmək, bunu yerə vurmaq, özlərini alçaq, nankorlar kimi aparmaq heç kimə şərəf gətirmir. Bu şərəfsizlər, bizə qarşı bu terror aktını törədənlər peşman olacaqlar. Bizim gücümüzü sınamasınlar. Bizim gücümüzü sınamaq istəyənlərin başı "Dəmir yumruq" vasitəsilə yarıldı. Bugünkü hadisə də eyni nəticəni hasil edəcək. Ona görə bu məsələ ilə bağlı tədbirlər planı hazırlanmalıdır. Bütün göstərişlər verilmişdir. İranın Azərbaycandakı səfiri Xarici İşlər Nazirliyinə çağırıldı, etiraz notası veriləcək, digər diplomatik addımlar atılacaq. Sərhədlə bağlı müvafiq göstərişlər verildi.

Onu da bildirməliyəm, bu gün səhər mənə məlumat verildi ki, İranın xarici işlər nazirinin müavini Bakıya zəng edir, xahiş edir ki, İran səfirliyinin Livanda qalmış əməkdaşlarının təxliyəsinə Azərbaycan kömək etsin. Çünki onların imkanı yoxdur. Mənə məruzə edildi. Mən dərhal göstəriş verdim ki, kömək göstərin, təyyarə göndərin. Hətta onlar dedilər ki, biz bunun pulunu da verməyə hazırıq. Dedim ki, lazım deyil, indi dar gündə biz kömək göstərməsək, bəs nə vaxt kömək göstərməliyik? Bütün bunların müqabilində çirkincə, namərdcə, nakişi kimi Naxçıvana zərbə endirmək?! Bu ləkə onların çirkin və eybəcər simasından heç vaxt silinməyəcək. Ona görə diplomatik yollarla bütün lazımi tədbirlər görüləcək. Bizim Silahlı Qüvvələrimiz - Müdafiə Nazirliyi, Dövlət Sərhəd Xidməti, digər bütün Xüsusi Təyinatlı Qüvvələr bir nömrəli səfərbərlik vəziyyətinə gətirilib və istənilən əməliyyatı keçirməyə hazır olmalıdırlar. Hələlik bu qədər.

Biz Azərbaycan xalqını proseslərin gedişatı ilə ələqədar məlumatlandıracağıq. Müdafiə Nazirliyinin açıqlaması artıq mətbuatda dərc edilib. Azərbaycan xalqı əmin olmalıdır ki, istənilən bəd qüvvə onlara qarşı bizim "Dəmir yumruğ"umuzu görəcək.

09_27 IYUl-QARA.qxd 3/5/2026 11:07 PM Page 6



# İrandan Naxçıvana dron hücumları: Rəsmi Bakıdan sərt reaksiya

***Xəbər verdiyimiz kimi, İran Naxçıvana dronla zərbələr endirib. Dronlardan biri aeroportun terminallarından birinə, daha bir neçə dron isə digər yerlərə düşüb. Bir dron isə Naxçıvan şəhərində məktəbin yaxınlığına təsadüf edib.***

Qeyd edək ki, münaqişə başlayandan bəri Azərbaycan İranla qonşuluq siyasətinə sadiq qalıb, Azərbaycan xarici işlər naziri Ceyhun Bayramov İran xarici işlər naziri Abbas Əraqçıya zəng edərək, Azərbaycan ərazisindən heç bir qonşu və dost dövlətə, o cümlədən İrana qarşı istifadə edilməyəcəyi ilə bağlı Ali Baş Komandan İlham Əliyevin dəfələrlə dediyi fikirləri bir daha xatırladıb.



Azərbaycan Prezidenti İlham Əliyev İranın Ali rəhbəri Xameneinin öldürülməsi ilə bağlı bu ölkəyə başsağlığı verən nadir dünya liderlərindən biri olub. Prezident İranın Azərbaycandakı səfirliyini şəxsən ziyarət edib, başsağlığı verib. Azərbaycan İranla sərhəd-keçid məntəqəsindən keçidi təmin edərək, həm İrandakı digər ölkə vətəndaşlarını, həm də İran vətəndaşlarının öz ölkələrinə keçidinə şərait yaradıb. Bütün bunlara baxmayaraq, molla rejimi bu gün hədəfləri arasına Azərbaycan ayrılmaq hissəsi olan Naxçıvan Muxtar Respublikasını daxil edib, Naxçıvan şəhəri və aeroportunun ərazisinə dron zərbələri endirib.

### XİN-dən etiraz notası...

5 mart tarixində günorta radələrində Naxçıvan Muxtar Respublikasına İran İslam Respublikasının ərazisindən dron hücumları həyata keçirilib. Bu barədə Azərbaycan Xarici İşlər Nazirliyindən məlumat verilib. Qeyd olunub ki, 1 ədəd dron Naxçıvan Muxtar Respublikasının Hava Limanının terminal binasına, digər bir dron isə Şəkərabad kəndində məktəb binasının yaxınlığına düşüb. Hava Limanının binasına zərər dəyməsi və iki nəfər mülki şəxsin xəsarət alması ilə nəticələnən İran İslam Respublikası ərazisindən həyata keçirilən bu dron hücumlarını qətiyyətlə pisləyirik. Azərbaycan ərazisinə bu hücum beynəlxalq hüququn norma və prinsiplərinə ziddir və regionda gərginliyin artmasına xidmət edir. İran İslam Respublikası tərəfindən qısa müddət ərzində qeyd olunan məsələyə aydınlıq gətirilməsini, buna izahat verməsini və bu kimi halların gələcəkdə təkrarlanmaması üçün zəruri təxirəsalınmaz tədbirlər görməyi tələb edirik.

Azərbaycan tərəfi müvafiq cavab tədbirləri görmək hüququnu özündə saxlayır. İran İslam Respublikasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Müctəba Dərmiçilu Xarici İşlər Nazirliyinə çağırılıb. İran tərəfinə kəskin etiraz bildirilərək, müvafiq etiraz notası təqdim ediləcək.

### "Hücum aktları cavabsız qalmayacaq" - MN

İran İslam Respublikasının silahlı qüvvələri tərəfindən İran ərazisindən pilotsuz uçuş aparatları ilə Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikasının Naxçıvan beynəlxalq hava limanına və digər mülki infrastrukura hücum aktları həyata keçirilib.

Bu barədə Müdafiə Nazirliyindən məlumat verilib. Bildirilib ki, pilotsuz uçuş aparatlarının texniki parametrləri və bu hücumların təfərrüatları araşdırılır. Azərbaycan Respublikası Müdafiə Nazirliyi hər hansı hərbi zərurət olmadığı halda, İran İslam Respublikasının silahlı qüvvələri tərəfindən ölkəmizin ərazisində mülki infrastruktura qarşı törədilən hücumları qəti şəkildə pisləyir.

Baş vermiş hadisəyə görə məsuliyyət tam şəkildə İran İslam Respublikasının üzərinə düşür. Azərbaycan Respublikası Müdafiə Nazirliyi ölkəmizin ərazi bütövlüyünün və suverenliyinin müdafiəsi, mülki şəxslərin və mülki infrastrukturun təhlükəsizliyinin təmin olunması üçün zəruri cavab tədbirlərini hazırlayır və bu hücum aktları cavabsız qalmayacaq.

### Dron hücumları ilə bağlı cinayət işi başlandı

Naxçıvanda mülki infrastruktura dronla hücumla bağlı cinayət işi başlanıb. Bu barədə Azərbaycan Baş Prokurorluğunun Mətbuat xidməti məlumat yayıb. Martın 5-də İran İslam Respublikasının ərazisindən uzaqdan idarə olunan partlayan döyüş başlığı ilə təchiz edilmiş 2 ədəd pilotsuz uçuş aparatları (PUA) vasitəsilə Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikasının mülki infrastruktur obyektlərinə qarşı hücum həyata keçirilib. İlkin istintaq hərəkətləri ilə müəyyən edilib ki, pilotsuz uçuş aparatlarından biri Naxçıvan Beynəlxalq Hava Limanının terminal binasına, digəri isə Babək rayonunun Şəkərabad kəndində yerləşən təhsil müəssisəsinin yaxınlığına düşüb.

Hadisə nəticəsində mülki infrastruktur obyektinə, yəni Naxçıvan Beynəlxalq Hava Limanının inzibati binasına və işinə əhəmiyyətli ziyan vurulub, eləcə də hava limanı xidmətlərinin işi qəsdən qanunsuz olaraq pozulduğundan Naxçıvan-Bakı istiqaməti üzrə 264 nömrəli reysi həyata keçirməli olan mülki hava gəmisi havada olarkən təhlükəsizlik məqsədilə Bakı şəhəri istiqamətində geri qayıtmağa məcbur olub.

Bundan başqa, hadisə nəticəsində dörd nəfər mülki şəxs:

Naxçıvan Hava Limanında xidmət aparan əməkdaşlar:

- 1986-cı il təvəllüdlü Vəliyeva Reyhanə Sabir qızı,
- 1996-cı il təvəllüdlü Zülfüqarlı Zülfüqar Məmməd oğlu,
- 1996-cı il təvəllüdlü Əsgərov Mehdi Mətləb oğlu və
- təyyarəyə minik gözləyən sərnişin 1998-ci il təvəllüdlü Cəfərov Əsəd Vidadi oğlu müxtəlif dərəcəli bədən xəsarətləri alıb. Zərərçəkmiş şəxslərə müvafiq tibbi yardımlar göstərilib, hazırda xəstəxanada həmin nəzarəti altında müalicələri davam etdirilir. Faktla bağlı Azərbaycan Respublikasının Baş prokuroru tərəfindən Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanaraq ibtidai araşdırmanın aparılması Baş Prokurorluğun İstintaq idarəsinə həvalə olunub. Hazırda cinayət işi üzrə prokurorluq əməkdaşları tərəfindən aidiyyəti dövlət qurumları ilə birgə hadisə yerinə baxış keçirilib, maddi sübutlar toplanıb, zərərçəkmiş şəxslərin və şahidlərin ilkin ifadələri alınıb, eləcə də, müvafiq ekspertizalar təyin edilməklə çoxsaylı istintaq hərəkətləri icra olunur. Bundan başqa, PUA-ların mənşəyi və idarəetmə marşrutu üzrə texniki araşdırmalar da aparılır.

İbtidai istintaq çərçivəsində beynəlxalq hüququn norma və prinsiplərinə zidd olaraq Azərbaycan Respublikasının ərazisinə qarşı həyata keçirilmiş bu hücumun bütün halları obyektiv, tam və hərtərəfli şəkildə araşdırılacaq, təqsirli şəxslərin qanunvericiliklə nəzərdə tutulmuş qaydada məsuliyyətə cəlb edilməsi istiqamətində zəruri tədbirlərin icrası təmin olunacaqdır.

Baş Prokurorluq bildirir ki, mülki əhalinin və strateji infrastruktur obyektlərinin hədəf alınması beynəlxalq humanitar hüququn əsas prinsiplərinin kobud şəkildə pozulmasıdır. Cinayət işi üzrə zəruri istintaq-əməliyyat tədbirləri davam etdirilir və ictimaiyyətə əlavə məlumatların verilməsi təmin ediləcəkdir.




## "Türkiyə hər zaman olduğu kimi Azərbaycanın yanındadır" - Rəsmi Ankara

***Türkiyə XİN İrandan Naxçıvana qarşı PUA hücumunu pisləyib.***

"Unikal" xəbər verir ki, rəsmi Ankara bu gün Azərbaycanın Naxçıvan Muxtar Respublikasına qarşı həyata keçirilən PUA hücumlarını qətiyyətlə pisləyib.

"Bölgədə üçüncü ölkələri hədəf alan və müharibənin yayılması riskini artıran bu cür hücumlara dərhal son verilməsinin vacibliyini bir daha vurğulayırıq. Türkiyə hər zaman olduğu kimi bundan sonra da Azərbaycanın yanında olmağa davam edəcək", - bəyanatda deyilir.

## Leyla və Arzu Əliyevalar "Leyla Medical Center"in Pediatriya Mərkəzində olublar

***Leyla Əliyeva və Arzu Əliyeva "Referans Medical Group"un tərkibində fəaliyyət göstərən "Leyla Medical Center"in Pediatriya Mərkəzində olublar.***

"Unikal" xəbər verir ki, ziyarət zamanı qonaqlar Mərkəzin gündüz stasionarında müalicə alan uşaqlara baş çəkib, onların səhhəti və müalicə prosesi ilə maraqlanıblar.

Uşaqlarla səmimi söhbət edən Leyla Əliyeva və Arzu Əliyeva körpələrə müxtəlif hədiyyələr təqdim edib, onlara xoş anlar yaşadıblar.

Qeyd edək ki, Pediatriya Mərkəzində uşaqların sağlamlığının qorunması və müalicəsi istiqamətində müasir tibbi xidmətlər göstərilir, balaca pasiyentlərin rahat və təhlükəsiz mühitdə müalicə alması üçün bütün zəruri şərait yaradılıb.

## Sənəd qəbulunun vaxtı uzadıldı

***Ali təhsil müəssisələrinə, həmçinin tam (11 illik) və ümumi (9 illik) orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə ərizələrin qəbulu 6 mart saat 12:00-dək uzadılıb.***

Bu barədə "Unikal"a DİM-dən məlumat verilib. Ərizə qəbulunda həm cari, həm də əvvəlki illərin məzunları iştirak etməlidirlər.

Ali təhsil və tam (11 illik) orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinin müsabiqəsində iştirak etmək istəyən bütün abituriyentlər Dövlət İmtahan Mərkəzinin internet saytının ekabinet.dim.gov.az səhifəsində "Şəxsi kabinet" yaratdıqdan sonra (şəxsi kabineti olmayanlar), onun istifadəçi adı və parolundan istifadə etməklə DİM-in müvafiq internet səhifəsinə daxil olub "Abituriyentin elektron ərizəsi" formasını doldurur və təsdiq edirlər (etdirirlər).

Tam (11 illik) orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə tələbə qəbulu elanı ilə buradan, ümumi (9 illik) orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə tələbə qəbulu elanı ilə isə buradan tanış ola bilərsiniz.

Qeyd olunub ki, ərizələrini Sənəd Qəbulu Komissiyalarında təsdiq etdirməli olan abituriyentlər 6 mart saat 12:00-dək müvafiq komissiyaya yaxınlaşmalıdırlar.

09_27 IYUI-QARA.qxd 3/5/2026 11:07 PM Page 7





## "İran dərs vaxtı məktəbi hədəf alıb" - MN

***"İran İslam Respublikası silahlı qüvvələrinin Baş qərargahının İranın bütün ölkələrin, xüsusən də müsəlman və qonşu ölkələrin suverenliyinə hörmətlə yanaşdığını bəyan etməsi və bu xüsusda İran tərəfindən Azərbaycana qarşı pilotsuz uçuş aparatları ilə bu gün törədilmiş hücumları təkzib etməsi heç bir halda məqbul sayıla bilməz".***

"Unikal" xəbər verir ki, bu barədə Müdafiə Nazirliyinin (MN) yaydığı növbəti açıqlamada bildirilib.

"Texniki vasitələrlə təsbit edilib ki, İran İslam Respublikasının silahlı qüvvələri tərəfindən dörd ədəd pilotsuz uçuş aparatı Azərbaycanın Naxçıvan bölgəsinə doğru hücum aktlarını törətmək üçün yönləndirilib. Onlardan biri Azərbaycan ordusu tərəfindən sıradan çıxarılıb, digərləri isə mülki infrastrukturu, o cümlədən dərs saatlarında orta məktəb binasını hədəfə alıb. Orta məktəb binasını hədəfə alan pilotsuz uçuş aparatı xoşbəxtlikdən hədəfə yetişməyib, məktəbin yaxınlığında yerə çırpılaraq partlayıb. Qeyd olunanları nəzərə alaraq, İran İslam Respublikasının silahlı qüvvələrindən aşkar inkarçılığa son qoymağı, baş vermiş hadisəyə görə üzrxahlıq ifadə etməyi və İranın aidiyyatı qurumları tərəfindən günahkarların cəzalandırılmasını gözləyirik", - açıqlamada qeyd olunub.

## "Azərbaycan hərbi gücündən istifadə edərək..." - Qabil Hüseynli

***"İran dövləti artıq başını itirib". Bunu "Unikal"a açıqlamasında politoloq Qabil Hüseynli deyib. Politoloq bildirib ki, İran onun üçün bəlkə də ən yaxın dövlət olan Azərbaycana qarşı xain dron hücumu həyata keçirib:***

"İran Beynəlxalq Millətlər Təşkilatının (BMT) nizamnaməsini, həmçinin bütün beynəlxalq hüquq normalarını pozub. Onlar suveren dövlətin ərazisinə dron hücumu ediblər. Bu, qudurmuşluqdur. Onlar buna görə Azərbaycandan ən azından ya üzr istəməlidirlər, ya da, Azərbaycan tərəfi bu həyasızlığa qarşı öz cavabını verməlidir. İranla bağlı BMT-nin Təhlükəsizlik Şurasına və digər beynəlxalq təşkilatlara şikayət etmək lazımdır. Qarşıda İranı onsuz da çox çətin günlər gözləyir. Həmin çətin günlərdə Azərbaycan dövləti onlara yardımçı ola bilərdi, amma indi əksinə, Azərbaycan İranla bağlı əlində olan faktlardan istifadə edəcək.Lazım gələrsə, Azərbaycan öz hərbi gücündən də istifadə edərək İranın gələcək taleyi ilə bağlı məsələlərdə, eyni zamanda 42 milyon azərbaycanlının birləşməsi ilə bağlı öz maraqlarına uyğun mövqe tuta bilər", - deyə Q.Hüseynli əlavə edib.

Qeyd edək ki, İran İslam Respublikasının ərazisindən Naxçıvan Muxtar Respublikasına bu gün günorta saatlarında dron hücumları həyata keçirilib. Dronlardan biri Naxçıvan Muxtar Respublikasının Hava Limanının terminal binasına, digəri isə Şəkərabad kəndində məktəb binasının yaxınlığına düşüb. Hava Limanının binasına zərər dəyib, dörd nəfər xəsarət alıb.

***Murad İbrahimli***

# "Azərbaycan cəmiyyəti və dövləti ailə kərpiclərinin üstündə qurulub"

## Tahir Kərimli: "Cəmiyyətdə sorğu aparsaq, boşanmaların birinci səbəbi kimi sosial problemləri göstərəcəklər"

***Sabiq deputat Tahir Kərimli "Unikal"a müsahibə verib. O, son günlər boşanma ilə bağlı aparılan müzakirələrdən, nikahdankənar uşaqların doğulmasının hansı problemlər yaradacağından, Azərbaycanda alimentlə bağlı işlərin sayının artmasından və boşanmaların sosial məsələlərlə nə qədər bağlı olmasından danışıb.***

***-Tahir bəy, deputat Fazil Mustafanın "çox vaxt qadınlar məqsədli şəkildə ilk uşaq dünyaya gələndən sonra aliment almaq üçün boşanırlar" fikri müzakirələrə səbəb olub. Onun bu fikirləri son günlər ən çox müzakirə olunan məsələlərdəndir. Boşanmaların artması nə ilə bağlıdır?***

-Mən praktik hüquqşünasam. Vaxtilə məhkəmədə boşanma və ailə mübahisələri ilə bağlı məsələlərə də baxmışam. Doğrudur ki, boşanmaların sayı dəfələrlə artıb. Əvvəlki qanunvericilikdə belə idi ki, məhkəmələr boşanmaları tezliklə həyata keçirmirdilər. Üç ay vaxt verirdilər. Daha sonra bir 3 ay da artırırdılar. Çox vaxt isə iddianı rədd edirdilər. Sonra qanunvericiliyə müəyyən dəyişiklik olundu ki, tərəflər razıdırsa və ya tərəflərdən biri öz tələbinin üzərində möhkəm dayanırsa, onda boşanmalara getmək lazımdır. Əlbəttə, boşanmalar uşağın kimdə qalması, əmlak mübahisələri ilə müşahidə olunur. Qanunvericilikdə boşanmaların çətinləşdirilməsini vacib sayıram. İddiaçı tərəfə çox da qulaq asılmasın. Hətta deyərdim ki, ona rüsum tətbiq olunsun.Çox vaxt görürük ki, boşanandan sonra qadınların çoxu tək qalır. Aliment alır və sərbəst həyat tərzi keçirir. Bir çoxları düzgün olmayan həyat tərzi keçirirlər. Bəzən əxlaqsızlığa yuvarlanırlar. Bu məsələdə Fazil bəyi haradasa haqlı sayıram. Ailə qurur ki, bir övladı olsun, ona baxsın, gələcəkdə də aliment təminatı olsun. On illərdir Rusiya cəmiyyətində və digərlərində belə hallar var. Onlar da bir övladı olandan sonra boşanmaya meyilli idi. Hər bir halda Azərbaycan ailəsi müqəddəsdir. Azərbaycan cəmiyyəti və dövləti ailə kərpiclərinin üstündə qurulub. Ailəyə müqəddəs baxılmalıdır. Bu istiqamətdə addımlar atılmalı, boşanmalardan qaçmaq və aliment məsələlərinə ciddi yanaşmaq lazımdır.

***-Aliment məsələsini siz də qeyd etdiniz. Alimentlə bağlı icraatda olan işlərin sayı ciddi şəkildə artıb və bu işlərin sayı son 5 il ərzində 10 minədək artıb. 2025-ci ildə icraatda 141 min aliment işi olub. Ötən il aliment ödəməkdən yayınan 2344 nəfər inzibati qaydada həbs edilib və aliment ödəməkdən yayınan şəxslər barəsində müəyyən cinayət hüquqi xarakter tədbirlər görülüb. Sizcə, bu halların artması hansı səbəbdən baş verir?***

-Əvvəllər belə fikir yürüdülürdü ki, aliment öhdəliklərini dövlət ödəsin. Bəzən aliment verməli olan şəxs tapılmır, başqa ölkəyə gedir və s. Amma düşünürəm ki, belə olsa, bir az da artar. Boşanma əsas şərt deyil. Hətta bir ailədə olmaqla aliment tələb etmək olar. Bizdə belə bir qayda var ki, elə bil aliment ancaq atadan tələb olunur. Amma qanunvericilikdə hətta ata anadan, valideyn övladından, övlad valideyndən aliment tələb edə bilər. Praktikaya əsasən elə bilirik ki, ancaq ata ödəməlidir. Hər bir halda boşanmaları çətinləşdirmək, dərhal buna icazə verməmək lazımdır. Boşanmadan əvvəl nikaha girənlərin məsuliyyəti olmalıdır. Hər kəs bilməlidir ki, ailə müqəddəsdir. Ailə quranda düşünməli deyil ki, nə vaxtsa boşanacaq. Bir-birinə dözsün, güzəşt etsin, qarşılıqlı etimad olsun. Bunlar kompleks məsələlərdir.

***-Ötən il Azərbaycanda 11 558 nikahdankənar uşaq doğulub. Bu, orta hesabla hər gün 32 uşağın rəsmi nikahdan kənar doğulduğunu göstərir. Əvvəlki illərdə bu rəqəm daha yüksək olub. Bu hallar gələcəkdə hansı problemlər yarada bilər?***

-Bu, Azərbaycan cəmiyyəti üçün çox utanverici məsələdir. Azərbaycan cəmiyyəti həmişə özünün namus-qeyrəti ilə seçilib, nikahsız ailə qurmayıb. Ən azı molla kəbini ilə ailə qurub. Bu çox biabırçı haldır. Belə halların qarşısı alınmalıdır. Dəfələrlə Milli Məclisdə bununla bağlı çıxış etmişəm. Necə olur ki, məsələn, atası ağır xəstəlikdən əziyyət çəkən şəxs 17 yaş 6 ayında ailə qurmaq istəyəndə ona icazə vermirlər. Amma necə ola bilər ki, 16 yaşından istənilən qadın-kişi əxlaqsızlıqla məşğul olur və heç bir məsuliyyət daşımır. Guya, könüllüdür. Qanunda təcili düzəlişlər etmək lazımdır. Əxlaqsız, nikahdan kənar münasibətlərə görə məsuliyyət hissi yaratmaq lazımdır. Bu məsələlər maarifləndirmə və qanunvericiliklə aparılmalıdır.



***-Boşanmaların sosial məsələlərlə bağlı olduğu ilə bağlı fikirlər də səsləndirilir. Sosial problemlər boşanma hallarına necə təsir edir və bunun üçün gənc ailələrə hansı dəstək tədbirləri verilməlidir?***

-Cəmiyyətdə sorğu aparsaq, boşanmaların birinci səbəbi kimi sosial problemləri göstərəcəklər. Əhalinin əksəriyyəti belə düşünür. Sosial problemlərin həlli kompleks baxış nəzərdə tutur. Konstitusiyamızın giriş hissəsində sosial dövlət olmaq öhdəliyini öz üzərimizə götürürük. Yəni, Azərbaycan dövləti sosial dövlətdir. Bəzi hüquqşünaslar doğru olmadığını sayırlar. Məsələ budur ki, sosialdırsa, birinci növbədə əhalinin sosial təminatı düşünülməlidir. Onun əməkhaqqı, iş yeri, aldığı pensiya və s. Bu məsələlərdə nəinki nizam-intizam yaratmaq, disporsiyanı aradan qaldırmaq, eyni zamanda ədalətli təyinat olmalıdır. Yəni, ölkəmizdə xərclər Avropa səviyyəsində, amma ödənişlər Afrika səviyyəsindədir. Məsələn, əhalinin ödəyəcəyi kommunal xərcləri azaltmaq, təminatını artırmaq, süni bahalaşmanın qarşısını almaq lazımdır. Bu kimi tədbirlər vahid hökumət proqramı ilə həyata keçirilməlidir.

***Anar Kəlbiyev***

# Şeyxin qudası olan sabiq deputat milyonlarla manatlıq əmlaklarını itirir

## Bilgəhi az qala özününküləşdirən Hacı Qalib Salahzadəyə şok üstünə şok! - Bundan sonra nə olacaq?

***Bu günlərdə, daha dəqiq desək, fevralın 23-də Bakının Bilgəh qəsəbəsində keçmiş deputat Hacı Qalib Salahzadəyə məxsus obyektlərdən biri tamamilə sökülüb. Əraziyə gətirilən ağır texnika ilə obyekt yerlə bir edilib.***

Obyekt ilkin olaraq fevralın 2-də bir neçə yerdən dağıdılmış, Hacı Qalib Salahzadəyə tam sökülməsi təklif olunmuşdu.

Həmin vaxt sabiq deputat bildirmişdi ki, söküntü Sabunçu Rayon İcra Hakimiyyətinin başçısı Adil Vəliyevin göstərişi ilə həyata keçirilib.



Maraqlısı odur ki, bu, Hacı Qalib Salahzadənin Bilgəhdəki obyektləri ilə bağlı ilk insident deyil.

Xatırladaq ki, 2024-cü ilin may ayında da Sabunçu Rayon İcra Hakimiyyətinin (RİH) nümayəndələri Bilgəh qəsəbəsində, Xəzər sahilində yerləşən və Salahzadəyə məxsus olduğu deyilən bağ torpaq sahəsindəki tikililəri sökmüş, ərazinin giriş qapısını daşla hörmüşdülər.

"Qalib Salahzadəyə bu ərazini qanunsuz zəbt etdiyi bildirilib. Ona dəfələrlə deyilib ki, bura bələdiyyə ərazisi deyil, dövlət topağıdır və çimərlik üçün nəzərdə tutulub. Bu prosesi aparmaq üçün icra hakimiyyətinin yüksək vəzifəli şəxslərinin tapşırığına ehtiyacı yoxdur, ərazinin zəbt edilməsinin qarşısını almalıyıq. Bunu da etmişik" - həmin vaxt sözügedən RİH-dən bildirilmişdi.

O da əlavə olunmuşdu ki, sabiq deputat nəinki bu ərazidə, ümumilikdə Bilgəhdə onlarla hektarı zəbt edib: "Hacı Qalib indiyə qədər bələdiyyə möhürünü özündə saxlayaraq (o, vaxtilə Bilgəh bələdiyyəsinin sədri olub - red.), istədiyi vaxt özünə və yüzlərlə adama torpaq sahələri üçün saxta bələdiyyə sənədləri "təşkil edib"".

Hətta iki il öncəki söküntü ilə bağlı Sabunçu Rayon İcra Hakimiyyətinin başçısı Adil Vəliyev də yerli KİV-ə açıqlama vermişdi. Bildirmişdi ki, söküntü zəbt edilmiş dövlət torpağının qanunsuz tikililərdən təmizlənməsi məqsədilə aparılıb. İcra başçısının sözlərinə görə, sözügedən ərazi çimərlik zonasıdır və heç vaxt bələdiyyə torpağı olmayıb, Salahzadə Bilgəhdə onlarla hektar ərazini müxtəlif üsullarla zəbt edib. Sitat: "Əgər Hacı Qalib Salahzadənin sözügedən torpaq sahəsinə dair dövlət qeydiyyatından keçmiş çıxarışı olsaydı, onun mülkiyyətinə toxunulmazdı. Sahilyanı zolaq "Ambuhran"dan Nardarana qədər xalqın istifadəsində olan çimərlik ərazisidir və bu ərazilərin zəbt edilməsinə yol verilməyəcək. Hacı Qalib Salahzadə onlarla vətəndaşa hüquqi əsası olmayan bələdiyyə sənədləri verib və bu da Rayon İcra Hakimiyyətini vətəndaşlarla üz-üzə qoyur. "Şəbəkə" adlı çimərlik də daxil olmaqla 2 hektar 80 sot ərazi məhz bu cür sənədlərlə mənimsənilib".

Sözügedən hadisənin əks-sədası səngimədən isə Hacı Qaliblə bağlı başqa bir qalmaqal ortaya çıxmışdı. Bu dəfə "POSAT" Bağ Tikinti Kooperativinin 28 üzvü də ayağa qalxmışdı.

Şikayətçilər ölkə rəhbərliyindən Salahzadənin onlara məxsus 4, ümumilikdə isə 5.3 hektar bağ torpaq sahəsinin zəbtdən azad olunmasını xahiş etmişdilər. Sitat: "Keçmiş deputat və keçmiş bələdiyyə sədri Qalib Salahzadə heç bir əsası, kötüyü olmayan bir kağızı əlinə alıb. Həmin kağızı özü Bilgəh bələdiyyəsinin sədri olarkən yazıb. Bələdiyyə sədri kimi kooperativə məxsus 4 hektar torpaq sahəsini vəfat etmiş nənəsi Kübra Camalovanın adına həyətyanı sahə kimi verib. Əlavə olaraq da 1.3 hektar torpağı da həmin 4 hektara qataraq yekun olaraq 5.3 hektarı nənəsinin adına rəsmiləşdirib. Respublikanın hansı bir yerində qoca arvada həyətyanı sahə olaraq 5.3 hektar torpaq verirlər? Məhkəmələrdə Hacı Qalibdən nənəsinin adına verdiyi sənədin kötüyünü tələb edirlər, yazır ki, Bilgəh Bələdiyyəsində yanğın olub, arxiv yanıb. Saxtakarlığı bu şəkildə ört-basdır edirlər".

Yeri gəlmişkən, Bilgəh bələdiyyəsinin sədri olduğu dövrdə Hacı Qalibin adıçəkilən şəhər tipli qəsəbəni az qala özününküləşdirdiyinə dair faktların sayı-hesabı yoxdur. Onun burada saxta sənədlər sayəsində yüzlərlə hektar torpaq və bağ sahəsini ələ keçirdiyi barədə ölkə mediası uzun illərdir ki, yazırdı. O da bildirilirdi ki, Salahzadəni belə qanunsuz əməllərə cəsarətlə qol qoymağa həvəsləndirən başlıca səbəblərdən biri də Qafqaz Müsəlmanları İdarəsinin rəisi Şeyxülislam Hacı Allahşükür Paşzadə ilə quda olmasıdır.

Hətta onun eyni səbəbdən bir zamanlar Milli Məclisə mandat qazandığı da vurğulanırdı.

Lakin Hacı Qalib ətrafında çoxsaylı qalmaqallar onun deputat mandatını itirməsi ilə nəticələndi.

Bununla belə, Şeyxin qudası 2020-ci ildə oğlu Əliabbasın Milli Məclisin üzvü seçilməsinə nail oldu. Lakin hazırda onun özü kimi oğlu da mandatsızdır.

Üstəlik, Hacı Qalib uzun illər boyunca Bilgəhdə şübhəli şəkildə sahib olduğu və dəyəri on milyonlarca manatla ölçülən əmlaklarını - qanunsuzluqla yiyələndiyi villaları, torpaq sahələrini, obyektlərini itirməyə başlayıb. Böyük ehtimalla proses qarşıdakı dövrdə də davam edəcək və vəzifə səlahiyyətlərindən, digər imtiyazlarından sui-istifadə edərək Bilgəhi özününküləşdirməyə çalışmış eks-deputatın digər qanunsuz əmlakları da oxşar taleyi yaşayacaq.

Necə deyərlər, "küləklə gələn küləklə gedər...".

***Sənan Mirzə***

# YAP-dan İranın Naxçıvana hücumuna reaksiya



***Martın 5-də İran İslam Respublikasının silahlı qüvvələri tərəfindən pilotsuz uçuş aparatları vasitəsilə Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikasının beynəlxalq hava limanına və digər mülki infrastruktura hücum aktlarının həyata keçirilməsi bütün Azərbaycan ictimaiyyəti kimi, Yeni Azərbaycan Partiyasının üzvlərinin də ciddi narahatlığına və böyük hiddətinə səbəb olmuşdur.***

Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatından "Unikal"a bildirilib ki, Azərbaycan-İran dövlətlərarası münasibətlərinin ruhuna və beynəlxalq hüquq normalarına zidd olan bu xain təxribat cəhdi regionda hərbi-siyasi gərginliyin artmasına xidmət göstərir.

Ərazi bütövlüyü və mütləq suverenliyini bərpa etməklə yeni reallıqlar yaradan müstəqil Azərbaycan dövləti hər zaman mehriban qonşuluq prinsipinə sadiq olub. Ölkəmizin bu gün milli maraqlar və qlobal çağırışları nəzərə almaqla həyata keçirdiyi konstruktiv siyasət və sülh diplomatiyası regionda etibarlı təhlükəsizlik və çoxşaxəli əməkdaşlıq kontekstində etimad quruculuğuna hədəflənmişdir. Eyni zamanda, Cənubi Qafqazın lider dövləti kimi hərbi-strateji potensialını daha da gücləndirən Azərbaycan milli və regional təhlükəsizliyə yönəlmiş istənilən təhdidin qarşısını almağa qadirdir.

Qonşu İran dövlətinin bu hücum aktını qətiyyətlə pisləyir, Azərbaycan xalqından üzr istəyərək ölkəmizə qarşı qərəzli təbliğata və bütün təxribat cəhdlərinə birmənalı şəkildə son qoyulmasını tələb edirik!

# Ceyhun Bayramov İranın Azərbaycana dron hücumlarından danışdı

***Özbəkistanın xarici işlər naziri Baxtiyor Saidov Azərbaycan xarici işlər naziri Ceyhun Bayramova zəng vurub.***

Bu barədə "Unikal"a Azərbaycan Xarici İşlər Nazirliyindən məlumat verilib.

Qeyd olunub ki, telefon danışığı zamanı Naxçıvan Muxtar Respublikası ərazisinə İran İslam Respublikası ərazisindən dron hücumlarının narahatlıq doğurduğu bildirilib.

Nazir Ceyhun Bayramov qarşı tərəfə dron hücumları barədə ətraflı məlumat verib. Bildirib ki, Azərbaycan Respublikasının ərazisinə qarşı həyata keçirilmiş bu hücum beynəlxalq hüququn norma və prinsiplərinin pozulmasıdır və regionda gərginliyin artmasına xidmət edir.

Azərbaycan tərəfinin baş verən hücum ilə bağlı İran tərəfindən qısa müddət ərzində aydınlıq gətirilməsinin, izahat verilməsinin və bu kimi halların gələcəkdə təkrarlanmaması üçün zəruri təxirəsalınmaz tədbirlərin görülməsinin tələb olunduğu diqqətə çatdırılıb.

# Nazir Londonda Çarlz Hatami ilə görüşdü

***Rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev Londonda "BlackRock" şirkətinin Maliyyə və Strateji İnvestorlar Qrupunun qlobal rəhbəri Çarlz Hatami ilə görüş keçirib.***

"Unikal" xəbər verir ki, görüşdə Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən Davosda "BlackRock" və onun törəmə şirkəti "Global Infrastructure Partners" ilə imzalanmış Niyyət Memorandumu çərçivəsində əməkdaşlığın inkişafı məsələləri müzakirə edilib.

Həmçinin rəqəmsal infrastruktur, süni intellekt ekosistemi, regional məlumat mərkəzinin qurulması və hava nəqliyyatı infrastrukturuna investisiyaların cəlb edilməsi ilə əlaqədar birgə işlərin ilkin nəticələri barədə fikir mübadiləsi aparılıb.

09_27 IYUl-QARA.qxd 3/5/2026 11:07 PM Page 9





# İranın Naxçıvana hücumu nəticəsində 4 nəfər xəsarət alıb - Adlar

***Dron hücumları nəticəsində Naxçıvan Hava Limanında xəsarət alan şəxslər Naxçıvan Muxtar Respublika Xəstəxanasının Təcili tibbi yardım şöbəsinə yerləşdiriliblər. Yaralılara zəruri tibbi yardım göstərilir və onların vəziyyəti həkim nəzarətindədir.***

"Unikal" xəbər verir ki, bu barədə Azərbaycan Səhiyyə Nazirliyi məlumat yayıb.

Bildirilib ki, Babək rayon Nəhrəm qəsəbə sakini, 1998-ci il təvəllüdlü Əsəd Cəfərov hava limanında əmək fəaliyyəti zamanı partlayış dalğasının təsiri nəticəsində qapalı kəllə-beyin travması və barotravma alıb. Bununla əlaqədar onda eşitmə qabiliyyəti ilə bağlı müəyyən problemlər müşahidə olunub. Zərərçəkənə ilkin tibbi yardım göstərilib, hazırda vəziyyətinin qiymətləndirilməsi məqsədilə tibbi müayinələr aparılır.

Culfa rayon sakini, 1996-cı il təvəllüdlü Mehdi Əsgərov da hadisə zamanı xəsarət alıb. Onun çiyin nahiyəsində yaralanma qeydə alınıb. Yaralıya tibbi müdaxilə olunub və zəruri müalicə tədbirləri görülüb. Hazırda müalicəsi davam etdirilir.

Naxçıvan şəhər sakini, 1986-cı il təvəllüdlü Reyhanə Vəliyeva partlayış dalğasının təsiri nəticəsində qapalı kəllə-beyin travması və barotravma alıb. Hazırda onun müalicəsi davam etdirilir.

Naxçıvan şəhər sakini, 1996-cı il təvəllüdlü Zülfüqar Zülfüqarlı isə partlayış nəticəsində döş qəfəsinin arxa səthinin küt travması alıb. Ona tibbi yardım göstərilib və müalicəsi davam etdirilir.

Həkimlərin verdiyi məlumata əsasən, yaralıların vəziyyəti stabildir, həyati təhlükə yoxdur. Səhiyyə müəssisələri tərəfindən zəruri tibbi tədbirlər görülür və xəstələrin vəziyyəti nəzarətdə saxlanılır.

İctimaiyyətə tövsiyə olunur ki, yalnız rəsmi mənbələrdən yayılan məlumatlara etibar etsinlər.

# Dövlət Neft Fondunun rəhbərliyinə təyinat oldu



***Azərbaycan Dövlət Neft Fondunun (ARDNF) rəhbərliyinə təyinat olub.***

Bu barədə "Unikal"a Fonddan bildirilib. Məlumata görə, Vadim Pşeniçnıy bu ilin mart ayından etibarən ARDNF-in İcraçı direktoruna müşavir təyin edilib.

Qeyd edək ki, V. Pşeniçnıy 2005-ci ildən ARDNF-də müxtəlif vəzifələrdə çalışıb. 2020-ci ildən yeni vəzifəsinə qədər Fondun risklərin idarə edilməsi departamentinin direktoru vəzifəsində işləyib.

# "Bu çətin məqamda Azərbaycanla tam həmrəyik"

***"Bu gün iki İran dronunun Naxçıvana zərbə endirməsi tamamilə qəbuledilməzdir".***

"Unikal" xəbər verir ki, bu fikirləri Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Fergus Auld "X" hesabında etdiyi paylaşımda bildirib.

"Böyük Britaniya Azərbaycanın təhlükəsizliyini təhdid edən istənilən hərəkəti qətiyyətlə pisləyir. Bu çətin məqamda Azərbaycanla və zərər çəkənlərlə tam həmrəyik. Səfirlik baş verənləri yaxından izləyir", - paylaşımda deyilir.

# Cavanşir Feyziyevin adı yenidən müəmmalı tenderdə!

## Qalmaqallı deputatın oğlu növbəti dəfə TƏBİB-dən birmənbə metodu ilə satınalma uddu - Suallar havada uçuşur...



***Tibbi Ərazi Bölmələrini İdarətmə Birliyinin (TƏBİB) İnnovasiya və Təchizat Mərkəzi fiziki şəxs Cavanşir Orxan Cavanşir oğlu ilə növbəti dəfə satınalma müqaviləsi imzalayıb.***

Müqavilədə Bakı şəhəri, Xəzər rayonu, Buzovna qəsəbəsi, Abşeron küçəsi, 142 D ünvanında yerləşən ümumi sahəsi 12 552,30 kv.metr olan ofis və anbar kompleksinin icarəyə götürülməsi nəzərdə tutulur. Buna görə Orxan Cavanşirə 490 000 manat ödəniləcək.

Satınalma proseduru birmənbə metodu ilə həyata keçirilib (Qaynarinfo).

"Unikal"ın əldə etdiyi məlumata görə, sözügedən anbar kompleksi dərman preparatlarının saxlanması üçün istifadə olunur. Ofis və anbarın bir yerdə ümumi sahəsinin isə 12 min kvadrat metrdən çox olduğu bildirilir.

Araşdırmalar zamanı məlum olub ki, İnnovasiya və Təchizat Mərkəzi ötən il eyni xidmətə görə Orxan Cavanşirə 392 000 manat, 2024-cü ildə isə 1 176 000 manat ödəyib. Bir sözlə, sonuncu satınalma iki il əvvəl ilə müqayisədə təxminən 170 min manat çox, ötən illə müqayisədə isə təqribən 400 min manat çoxdur. Belə kəskin fərqlərin səbəbi məlum deyil.

O da məlum deyil ki, satınalma hansı səbəbdən birmənbə medodu ilə baş tutub.

Ümumiyyətlə isə İnnovasiya və Təchizat Mərkəzinin hər il Orxan Cavanşirlə icarə müqaviləsi bağlaması icarə müddətinin 1 il olması barədə ehtimalları artırır. Bu halda aylıq icarə haqqı aylıq 40 833 manat edir.

Xatırladaq ki, Orxan Cavanşir deputat Cavanşir Feyziyevin oğludur.

63 yaşlı Cavanşir Feyziyev 2015-ci ildən Milli Məclisin üzvüdür. 1998-ci ildən aktiv biznes fəaliyyətinə başlayıb və "Planet Ko Ltd" şirkətinin direktoru olub. 2003-2010-cu illərdə isə "Avromed" Məhdud Məsuliyyətli Cəmiyyətinin direktoru vəzifəsini tutub. O, hazırda daha çox əczaçılıq sahəsində aparıcı şirkətlərdən olan "Avromed Company" QSC-nin sahibi kimi tanınır.

Cavanşir Feyziyev deputat seçildikdən sonra sözügedən şirkət onun qızı Baxşiyeva Əzizə Cavanşir qızının rəhbərliyi altında fəaliyyət göstərib. Əzizə Baxşıyeva bu vəzifəni 2020-ci ilədək yerinə yetirib. Hazırda Feyziyev "Avromed"lə bağlılığının olmadığını desə də, yerli media və ictimaiyyət nümayəndələri əks fikirdədirlər. Belə ki, o, ölkənin dərman bazarının aparıcı fiqurlarından biri olaraq göstərilir.

Yeri gəlmişkən, bir neçə il öncə Cavanşir Feyziyev və onun ailə üzvlərinin - həyat yoldaşı Pərvanə Feyziyeva, oğlu Orxan Cavanşir və qardaşı oğlu Elman Cavanşirin adı Böyük Britaniyada "çirkli pulların" yuyulmasında hallanıb. Belə ki, 2021-ci ildə Britaniyada Cinayətkarlıqla Mübarizə Agentliyi ailənin bank hesablarında olan 15 milyon funt-sterlinqi (o zamankı məzənnə ilə 34,7 milyon manat) "çirkli pul" sayıb. Daha sonra məhkəmə prosesi keçirilib və Britaniya məhkəməsi 5,6 milyon funt-sterlinq məbləğində vəsaitin mənbəyini şübhəli hesab etdiyi üçün müsadirə edib.

Haqqında danışılan vəsaitin 4,4 milyon funt-sterlinqi Pərvanə Feyziyevanın, 1 milyon funt-sterlinqi Orxan Cavanşirin, 240 min funt-sterlinqi isə Elman Cavanşirin hesabından müsadirə olunub.

O zaman Cavanşir Feyziyev çirkli pulların yuyulması və ya hər hansı qanunsuz fəaliyyətdə iştirakını qəti şəkildə inkar edib.

Ümumiyyətlə isə adıçəkilən deputatın oğlunun icarə tenderləri ilə bağlı adı ilk dəfə 2021-ci ildə gündəmə gəlib. Həmin vaxt məlum olmuşdu ki, fərdi sahibkar Cavanşir Orxan "İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi"nə 1 il müddətinə ofis və anbar kompleksi icarəyə verir. Qeyd olunan ofis və anbar kompleksinin icarəsi üçün "İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" isə Cavanşir Orxana 1 milyon 176 min manat ödəyəcək. Bu xəbər geniş rezonansa səbəb olmuş, müzakirələr yaratmışdı.

"İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi 5 ildi fəaliyyətə başlayıb, pilot layihələr edib, bununla bağlı normal məlumatlar yaymayıb... Əlçatan xidmət məsələsi axsayır, hələ bir nəfər tanımıram ki, Agentlikdən razılıq etsin. İndi də məlum olur ki, Agentlik Buzovna qəsəbəsində 1 illiyə ofis və anbar icarəyə götürüb - müqavilənin dəyəri 1 milyon 176 min manatdır. Agentlik obyekti ayı 98 min manata icarəyə götürüb, özü də Buzovnada" - həmin vaxt iqtisadçı ekspert Natiq Cəfərli özünün sosial şəbəkə hesabında yazmışdı.

Ekspertin sözlərinə görə, həmin obyektin sahibi gənc bir insandır: "Orxan Feyziyev. Ola bilər ki, çox bacarıqlı, təhsilli gəncdir, amma bir məsələ var ki, Orxan bəy deputat Cavanşir Feyziyevin oğludur. Bu da Azərbaycan fenomenidir - bütün məmur, deputat, nazir uşaqları doğuşdan bacarıqlı biznesmen olurlar, həmişə tenderləri udurlar, belə bir "sirri" İsveçrənin elm adamları da çözə bilməz".

Feyziyev isə istər həmin vaxt, istərsə də ondan sonrakı müddətdə oğlunun qalib seçildiyi və cəmiyyətdə geniş müzakirələrə səbəb olan satınalma müsabiqələri ilə bağlı səsləndirilən tənqidi fikirlərə hər hansı münasibət bildirməyib.

***Toğrul Əliyev***

09_27 IYUl-QARA.qxd 3/5/2026 11:07 PM Page 10



# İcra başçıları işsiz qalacaq...

## Yerli icra hakimiyyətlərində ixtisarlar nə vəd edir? - İkimərhələli planın ilginc detalları "Unikal"da!

***Azərbaycanın rayon və şəhər icra hakimiyyətlərində ixtisarlar davam edir. Yola salmaq üzrə olduğumuz həftə Lənkəran, Şəki, Yevlax, Mingəçevir və Şirvan şəhərləri icra hakimiyyəti başçılarının müavinlərinin sayı azaldılıb.***

Həmin icra hakimiyyətlərində başçının müavini vəzifəsinin sayı 4-dən 3-ə endirilib.

Məlumata görə, yeni struktur dəyişikliyi ilə əlaqədar olaraq sözügedən şəhərlərin icra hakimiyyəti başçılarının müavinlərinin yeni vəzifələri müəyyənləşib. "İqtisadiyyat.az"-ın verdiyi məlumata görə həmin vəzifələr aşağıdakılardır: Başçının birinci müavini, Başçının müavini - Ərazi-təşkilat və ictimai-siyasi məsələlər şöbəsinin müdiri, Başçının müavini - Sosial-iqtisadi, memarlıq-tikinti məsələləri və şəhər təsərrüfatı şöbəsinin müdiri.

Xatırladaq ki, əvvəllər bu şəhər icra başçılarının müavinlərindən biri birinci müavin, digərləri Şəhər təsərrüfatı şöbəsinin müdiri, Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri və İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri vəzifələrini icra ediblər.

Qeyd edək ki, ölkənin ən böyük şəhəri olan Bakının icra hakimiyyətində başçının cəmi dörd müavin postu mövcuddur. İcra başçısının ən çox müavini olan şəhərə gəldikdə onların sayı ikidir. Belə ki, Sumqayıt və Gəncə Şəhər İcra Hakimiyyətlərində başçının müavini vəzifəsinin sayı beşdir. Paytaxtın 12 rayonunda və ölkənin əksər rayonlarında icra başçılarının müavini postunun sayı üçdür. Naftalan Şəhər İcra Hakimiyyətində isə başçının birinci müavini vəzifəsi mövcud deyil və cəmi iki müavin postu vardır.

Bundan əvvəl isə Cəlilabad Rayon İcra Hakimiyyətində 28 əməkdaş vəzifəsindən azad edilib. Belə ki, 38 vəzifə ləğv edilib və nəticədə həmin şəxslər işini itiriblər. Onlardan 10 nəfəri müxtəlif qurumlarda müəyyən vəzifəyə təyin edilsə də, 28 nəfər yeni işlə təmin edilməyib. İcra başçısı Rafiq Cəlilovun sərəncamı ilə 28 əməkdaşın dövlət qulluğuna xitam verilib.

Ötən günlərdə icra hakimiyyəti orqanlarında aparılan struktur dəyişikliyi ilə əlaqədar Ağsu Rayon İcra Hakimiyyətinin 14 əməkdaşı, Tovuz Rayon İcra Hakimiyyətinin isə 43 əməkdaşı vəzifələrindən azad edilmişdilər.

"Unikal"ın əldə etdiyi məlumatda rayon və şəhər icra hakimiyyətlərində ixtisarların davam edəcəyi və miqyasının genişlənəcəyi vurğulanır. Sözügedən qurumlar artıq bununla bağlı məlumatlandırılıb. Prosesin icra hakimiyyətlərinin ləğvi ilə yekunlaşacağı istisna olunmur. "Mümkündür ki, birdən-birə minlərlə kadrın işsiz qalmaması üçün proses tədrici şəkildə həyata keçirilir. Hazırkı vəziyyətdə rayon və şəhər icra hakimiyyətlərinin effektiv fəaliyyətindən danışmağa dəyməz. Bu qurumlar əhalinin ən çox şikayətçi olduğu dövlət orqanlarının önündə gəlir və onların statusuna yenidən baxılması qaçılmaza çevrilib" deyə mövzu ilə bağlı məlumatlı mənbə bildirib.

Prezident İlham Əliyevin bu il yanvarın 5-də yerli televiziya kanallarına müsahibəsindəki fikirlərini də xatırladan qaynağımız əlavə edib: "Ölkə başçısı həmin müsahibədə bildirmişdi ki, Qarabağda və Şərqi Zəngəzurda tətbiq olunan idarəetmə modeli bir gün ölkənin müxtəlif yerlərinə, bəlkə də bütövlükdə ölkəyə tətbiq oluna bilər. Çünki bu da operativ, çevik və daha az məmurun iştirakını tələb edən üsuli-idarə metodudur. Dövlət rəhbərinin sözləri fonunda icra hakimiyyətlərinin tədrici şəkildə ləğvi, icra başçısı postunun isə Prezidentin xüsusi nümayəndəsi vəzifəsi ilə əvəzlənməsi formulunun reallaşma ehtimalı kifayət qədər yüksək görünür. Ümumi inkişafımız üçün hər bir insanın, xüsusilə vəzifə sahibinin ürəklə işləməli olduğunu vurğulayan Prezident onu da bildirmişdi ki, "xüsusilə belə möhtəşəm və tarixi Zəfərdən sonra cəmiyyətdə indi bu qədər xoş əhval-ruhiyyə var. Biz hamımız son beş ili, necə deyərlər, qürurlu, xoşbəxt insanlar kimi yaşayırıq. Ona görə biz hamımız cəmiyyətdə olan problemlərə, kadrlarla bağlı məmur özbaşınalığına daha dözülməz olmalıyıq, mən başda olmaqla, hamımız daha dözülməz olmalıyıq". Prezidentin mesajları kifayət qədər aydındır və ölkə rəhbərliyinin istər kadr, istərsə də struktur islahatları nəticəsində idaretmənin tam SAĞLAMLAŞDIRILMASI istiqamətində iradəsini bir daha ortaya qoyur".



Sabiq millət vəkili Vahid Əhmədov da bu yaxınlarda "AzPolitika"ya müsahibəsində bildirmişdi ki, 70-dən çox icra orqanının olması büdcə üçün əlavə yükdür: "14 xüsusi nümayəndəlik saxlamaq başqa məsələdir, 70-dən çox icra orqanı saxlamaq isə tamam başqa yükdür. Bu, böyük maliyyə xərci deməkdir. Halbuki cənab Prezidentin tapşırığı ilə Qarabağda işlər sürətlə gedir, əkin sahələri yaradılır, sənaye zonaları formalaşdırılır və bu proseslər o qədər də böyük saxlanma xərcləri tələb etmir. Əhali sayı və real ehtiyaclar nəzərə alınmadan struktur saxlanılması islahat deyil. Əsl islahat həmişə effekt verir və çox ciddi nəticələr ortaya qoyur. Azərbaycanda da gec-tez bu cür dərin və sistemli islahatlara başlanılmalıdır".

Qeyd edək ki, hazırda Azərbaycanda rayon və şəhər səviyyəsində ümumilikdə 66 rayon və 11 şəhər icra hakimiyyəti fəaliyyət göstərir. Bakıda və digər bölgələrdə aparılan son struktur dəyişiklikləri isə göstərir ki, ikimərhələli proses başlayıb. Söhbət yaxın mərhələdə icra hakimiyyətlərində ixtisarlar yolu ilə onların fəaliyyətinin optimallaşdırılması, uzaq mərhələdə isə icra hakimiyyətlərinin tamamilə ləğvindən gedir.

***Toğrul Əliyev***

# "İran rejimi bu addımı ilə artıq bütün maskalarını cırıb atdı" - Deputat



***"İran silahlı qüvvələri tərəfindən pilotsuz uçuş aparatları ilə Naxçıvan Beynəlxalq Hava Limanına və digər mülki obyektlərə qarşı həyata keçirilən hücum aktı Azərbaycana qarşı açıq-aşkar düşmənçilik siyasətinin növbəti təzahürüdür. Bu, artıq təsadüfi hadisə deyil, Tehran rejiminin şüurlu və planlı şəkildə seçdiyi təxribat yoludur. İran rejimi bu addımı ilə artıq bütün maskalarını cırıb atdı. Azərbaycan illərdir nümayiş etdirdiyi təmkinə, mehriban qonşuluq siyasətinə və açıq diplomatik mövqeyinə baxmayaraq, təxribatla üz-üzə qaldı. Bu, molla rejiminin mahiyyətinin növbəti təzahürüdür".***

Bunu "Unikal"a Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin üzvü, deputat Səbinə Salmanova deyib.

"Dövlətimizin təhlükəsizliyi, ərazi bütövlüyü və vətəndaşlarının həyatı hər şeydən üstündür. Azərbaycan tərəfi müvafiq cavab tədbirləri görmək hüququ vardır və bu hüquq beynəlxalq hüquqla qorunur. Regionda yeni gərginlik ocaqlarının yaradılması heç bir tərəfə fayda vermir. Lakin əgər hansısa dairələr təxribat yolu seçirsə, bilməlidir ki, Azərbaycan artıq əvvəlki Azərbaycan deyil. 44 günlük Vətən müharibəsində qazandığı tarixi Qələbə ilə öz hərbi-siyasi iradəsini nümayiş etdirən dövlət bu gün də milli təhlükəsizlik məsələlərində qətiyyətlidir. Dövlətimizin təhlükəsizliyi və suverenliyi bizim qırmızı xəttimizdir və bu xətti keçən hər kəs anlamalıdır ki, atdığı addımın nəticələri qaçılmaz olacaq. Unutmasınlar ki, Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin müdafiəsi, mülki şəxslərin və mülki infrastrukturun təhlükəsizliyinin təmin olunması üçün zəruri cavab tədbirlərini hazırlayır və bu hücum aktları cavabsız qalmayacaq".

***Orxan Rasifoğlu***

# "Bu sahədə əmək müqavilələrinin sayı 1 milyonu ötüb" - Nazir

***2019-cu ilin əvvəli ilə müqayisədə 2025-ci ildə müqavilələrin sayında qeyri-neft-qaz sektorunun özəl bölməsi üzrə əmək müqavilələrinin cəminin xüsusi çəkisi 38,5 faizdən 54,4 faizə yüksəlib. Sektorda müqavilələrin sayı isə 1,9 dəfə artaraq 1 milyonu ötüb və dövlət sektorunun göstəricisini üstələməyə davam edir.***

"Unikal" xəbər verir ki, bunu "Vergi sistemində gələcəyə baxış: Yeni idarəetmə modeli və data əsaslı qərarlar" adlı forumdakı çıxışı zamanı iqtisadiyyat naziri Mikayıl Cabbarov deyib.

Nazir bildirib ki, ötən il Azərbaycanın beynəlxalq mövqelərinin möhkəmlənməsi baxımından əlamətdar il olub.

"Sülh gündəliyinə dair irəliləyişin əldə olunması ölkəmiz və region üçün böyük iqtisadi inkişaf perspektivləri açıb. Qlobal iqtisadi tərəfdaşlarla imzalanmış strateji tərəfdaşlıq sənədləri Azərbaycanın artan geoiqtisadi rolunu daha da gücləndirir. Bu tərəfdaşlıqlar investisiya, ticarət, enerji, rəqəmsal transformasiya, süni intellekt, yüksək texnologiyalar və digər sahələrdə qlobal dəyər zəncirlərinə daha sıx inteqrasiya üçün yeni imkanlar yaradır", - deyə nazir əlavə edib.

09_27 IYUl-QARA.qxd 3/5/2026 11:08 PM Page 11





## 300 min manatlıq dələduzluq edən şəxs hakim qarşısında

*Vətəndaşları işə düzəltmək adıyla 300 min manatdan çox dələduzluq etməkdə təqsirləndirilən Sahil Həsənovun cinayət işi üzrə məhkəmə prosesi başlayıb.*

"Unikal"ın məlumatına görə, Bakı Ağır Cinayətlər Məhkəməsinin hakimi Səbinə Məmmədzadənin sədrliyi ilə keçirilən prosesdə təqsirləndirilən şəxsin anket məlumatları dəqiqləşdirilib.

Təqsirləndirilən şəxsin vəkili vəsatət verərək məhkəmədən xahiş edib ki, vətəndaşlara dəymiş ziyanın ödənməsi üçün müvəkkili barəsində ev dustaqlığı qətimkan tədbiri seçilsin.

Dövlət ittihamçısı çıxış edərək işin baxışa verilməsini və vəsatətin təmin edilməməsini təklif edib.

Məhkəmə qısa müşavirədən sonra işin baxışa verilməsi və vəsatətin təmin edilməməsi barədə qərar qəbul edib.

Məhkəmənin ilk baxış iclası martın 12-nə təyin edilib.

Qeyd edək ki, iş üzrə 16 zərərçəkmiş var və ümumilikdə dəymiş ziyan isə 300 min manatdan artıqdır. İttihama görə, təqsirləndirilən şəxs vətəndaşları müxtəlif işlərə düzəldəcəyi ilə bağlı yalan vəd verərək onlardan pul alıb.

Sahil Həsənova qarşı Cinayət Məcəlləsinin 178.3.2-ci (külli miqdarda dələduzluq etmə) və 320.1-ci (Hüquq verən və ya vəzifədən azad edən vəsiqəni və ya digər rəsmi sənədi istifadə etmək məqsədi ilə saxtalaşdırma və ya qanunsuz hazırlama, yaxud bu cür sənədi satma, habelə eyni məqsədlə Azərbaycan Respublikasının saxta dövlət təltifini, ştampı, möhürü, blankı hazırlama və ya satma) maddələri ilə ittiham irəli sürülüb.

***Orxan Rasifoğlu***

## Ermənistana dizel yanacağı və gübrə daşıyan qatar yola düşdü

*Azərbaycandan Ermənistana dizel yanacağının və Rusiya gübrəsinin tədarükü baş tutur.*

"Unikal" xəbər verir ki, 1 984 ton dizel yanacağı yüklənmiş 31 ədəd vaqondan və 135 ton gübrə yüklənmiş 2 vaqondan ibarət qatar "Azərbaycan Dəmir Yolları" QSC-nin Biləcəri stansiyasından Böyük Kəsik stansiyası istiqamətində yola salınıb.

Yük Gürcüstan ərazisindən tranzit keçməklə Ermənistana çatdırılacaq.

Rusiya gübrəsi Azərbaycandan tranzitlə Ermənistana göndərilir.

## Aydan gözəl olan Aynur...



***Atası Vüsal Kazımov Vətən uğrunda canından keçərək adını tarixə yazdı. Onun əmanəti olan Aynur isə bu gün 6 yaşına qədəm qoyur. Əziz Aynur, Sən şəhid qızısan - başın hər zaman uca, yolun daim işıqlı olsun. Atanın qəhrəmanlığı sənin ən böyük qürur mənbəyindir. Uca Tanrı sənə sağlam, xoşbəxt və uğurlu ömür nəsib etsin.***

Doğum günün mübarək, gözəl balamız! Vətən Şəhidlərinin ruhu qarşısında baş əyir, əmanətlərinə səbir diləyirik.

# Özəl klinikalar borc bataqlığında

## Qiymətləri qan dondurur, ancaq vergiləri ödəyə bilmirlər... - Şok rəqəmlər!



***Azərbaycanda çox sayda özəl klinikanın külli miqdarda vergi borcu var. "Unikal"ın əldə etdiyi məlumatlar belə deməyə əsas verir.***

"Regional Hospital" Məhdud Məsuliyyətli Cəmiyyətinin (MMC) külli miqdarda vergi borcu üzə çıxıb. Belə ki, "Regional Hospital"ın hazırda dövlətə 824 min 946 manat vergi borcu mövcuddur.

Qeyd edək ki, nizamnamə kapitalı cəmi 4 AZN olan MMC-nin direktoru Qorçuyev Pərviz Dosməmməd oğludur.

Bakı şəhərində fəaliyyət göstərən "Uniklinika"nın ("Unikal-A" MMC) da külli miqdarda vergi borcu olduğu üzə çıxıb. Klinikanın hazırda dövlətə 245 min 451 manat vergi borcu var. O da məlum olub ki, "Uniklinika"da işçilərin əməkhaqları da gecikdirilir. Belə ki, sözügedən klinikanın bəzi əməkdaşları aylarla maaşlarını ala bilmirlər. Bunu sosial şəbəkədə "Uniklinika" ilə bağlı "Unikal.az"ın yayımladığı xəbərin şərh hissəsində rəy yazan şəxslər də təsdiqləyiblər.

Bir neçə gün sonra isə aydın oldu ki, məsələnin ictimailəşməsindən sonra dövlət qurumları hərəkətə keçiblər. Artıq Səhiyyə Nazirliyinin Analitik Ekspertiza Mərkəzi tərəfindən "Uniklinika"da yoxlamalara başlanılıb. Yoxlamalar nəticəsində bir sıra nöqsanların üzə çıxdığı bildirilir.

Hazırda "Uniklinika"da yoxlama prosesi davam etdirilir.

Qeyd edək ki, "Uniklinika" "Unikal-A" MMC adı ilə vergi uçotuna alınıb. Nizamnamə kapitalı cəmi 30 AZN olan MMC-nin direktoru Xəyal Anar oğlu Əlizadədir.

"İstanbul NS Klinikası" Məhdud Məsuliyyətli Cəmiyyətinin (MMC) də külli miqdarda vergi borcu var. Adıçəkilən klinikanın hazırda dövlətə vergi borcu 146 min manat təşkil edir.

Qeyd edək ki, nizamnamə kapitalı cəmi 10 AZN olan "İstanbul NS Klinikası" MMC-nin direktoru Nəsirov Azər Qənbər oğludur.

Bakıda fəaliyyət göstərən və dövlətə külli miqdarda vergi borcu olan digər məşhur özəl klinikalar aşağıdakılardır (borc siyahısına dərman və tibbi ləvazimatlar satan şirkətlər də daxil edilib):

Byron Medical MMC - 27 816,59 manat (Demirok Ugur)

General Medikal MMC - 15 633,70 manat (Qəribov İlham İslam oğlu)

İzomer Medical MMC - 11 544,05 manat (Həbibov Polad Murad oğlu)

Medicine MMC - 23 735,68 manat (Ramazanlı Cavid Şamo oğlu)

Uni Service Medical MMC - 40 429,15 manat (Ruhullayev Rauf Eynulla oğlu)

Alfamed Ltd MMC - 103 666,71 manat (Əliyeva Kübra Yaşar qızı)

Medaura Klinikası MMC - 361 040,11 manat (İsbiyev Mübariz Qabil oğlu)

Synergy Medical MMC - 3 330 972,79 manat (Paşayeva Gülnar Polad qızı)

Med Life Group MMC - 33 720,76 manat (Babayev Məmməd Tofiq oğlu)

Proymed Espana Corp MMC-nin Azərbaycan Filialı - 159 404,34 manat (Sazak Metin)

Premiummed MMC - 66 591,37 manat (Abdullayeva Rəna Eldar qızı)

Medoil MMC - 33 156,92 manat (Məmmədov Ceyhun Asim oğlu)

Meduza-ALP MMC - 342 329,66 manat (Cəfərov Elşən İslam oğlu)

Atlas Medical Center MMC - 196 252,71 manat (Əliyeva Əsli Əkbər qızı)

Yunimed MMC - 1 044 572,41 manat (Məmmədov Vahid Məhəmmədəli oğlu)

Turazmed Tibb Avadanlıqları MMC - 62 524,15 manat (Əhmədov Almaz Novruz oğlu)

Vescor Med MMC - 459 696,51 manat (İsmayılov Emin Maksim oğlu)

Medistyle MMC - 25 804,04 manat (Əhmədov Ramil Famil oğlu)

Nur Medikal MMC - 26 621,19 manat (Əliyeva Nazilə Ata qızı)

Ankarat Medik Lab MMC - 287 721,01 manat (Eyyubov Şəhriyar Azər oğlu)

"Qaynarinfo"nun məlumatına görə, borclar əsasən İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Bakı şəhəri Lokal Gəlirlər Baş İdarəsi və Ərazi Vergilər Baş İdarəsinə yaranıb. Bəzi tibbi şirkət rəhbərlərinin ölkədən çıxışına da məhdudiyyət qoyulub.

Qeyd edək ki, Azərbaycanın özəl klinikalarında qiymətlər xeyli yüksəkdir. Beş-on dəqiqəlik adi bir həkim konsultasiyası üçün belə, xəstələrdən azı 70-80 manat tələb olunur. Üstəlik, bir çox hallarda yüksək qiymətlə xidmətin keyfiyyəti arasında da uçurum müşahidə edilir. Hansısa özəl klinikaya ölkə reallığında yetərincə böyük məbləğlər ödəyib lakin əvəzində normal tibbi xidmət ala bilməyənlər, həmin klinikadan şikayətlənənlər, sağlamlığına qovuşmaq istəyərkən olan-qalan sağlamlığını da itirənlər, hətta həyatla vidalaşanlar az deyil.

Bütün bunların fonunda özəl klinikaların çoxunun borc içində çabalamasına izah vermək çətindir. "Unikal" olaraq növbəti saylarımızda bu şübhəli məqamın pərdəarxasını ortaya çıxarmağa çalışacağıq. Hələlik yalnız onu deyə bilərik ki, sözügedən tibb müəssisələrinin külli miqdarda vergi borclarının yaranmasında sensasiyalı nüanslar var. Həmin nüanslarla bağlı araşdırmalarımız davam edir və bu mövzuda yekun yazını yaxın vaxtlarda siz hörmətli oxucularımızla bölüşəcəyik. Odur ki, qəzetimizin qarşıdakı nömrələrini izləyin!

***Sənan Mirzə***

## 5.3.18. gender, ailə və demoqrafiya məsələlərinin işıqlandırılması

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Telekanalların ailə dəyərlərinin qorunmasında rolu

Qulu Məhərrəmli: "Yayım siyasətində ictimai maraq əsas götürülməli, reytinq xatirinə cəmiyyətin mənəvi dəyərlərinə zidd məzmunun təqdim olunmasına yol verilməməlidir"



***Kütləvi informasiya vasitələrində ailə institutunun qorunması, gender bərabərliyinin düzgün təqdim olunması və demoqrafik inkişafla bağlı mövzuların milli-mənəvi dəyərlərə uyğun şəkildə işıqlandırılması mühüm amildir. Media cəmiyyətin sosial şüuruna birbaşa təsir göstərən əsas vasitələrdən biridir. Ailə institutunu zəiflədən, qeyri-etik davranışları təşviq edən və ya gender münasibətlərini təhrif olunmuş formada təqdim edən proqramlar ictimai narazılıq doğurur və sosial sabitliyə mənfi təsir göstərə bilər.***

Son günlər televiziya kanallarında ailə dəyərlərinə zidd hesab edilən bəzi verilişlərin bağlanması cəmiyyətdə müsbət qarşılanıb.

Ekspertlər də hesab edir ki, media cəmiyyət üçün nümunə formalaşdıran əsas platformalardan biridir. Əgər efirdə təqdim olunan məzmun etik normalardan kənar, kobud ifadələrlə zəngindirsə bu, xüsusilə yeniyetmə və gənclərin dünyagörüşünə təsir edə bilər. Ailə münasibətlərinin hörmət, sədaqət və məsuliyyət kimi dəyərlər üzərində qurulması əvəzinə, əyləncə və müvəqqəti münasibətlər prizmasından təqdim olunması ailə modelinin ictimai şüurda zəifləməsinə səbəb ola bilər. Həmçinin bayağı məzmunun geniş təbliği milli-mənəvi dəyərlərin arxa plana keçməsinə səbəb ola bilər. Halbuki televiziya maarifləndirici, estetik zövqü inkişaf etdirən və ailə institutunu möhkəmləndirən proqramlara üstünlük verməlidir.

Bəs necə edək ki, efirlərimizi ailə dəyərlərini deqradasiyaya uğradan şit və bayağı verilişlərdən qoruyaq?

Teletənqidçi Qulu Məhərrəmli "Unikal" qəzetinə müsahibəsində bildirib ki, illərdir ailə-məişət mövzularının efirlərdən yığışdırılması məsələsi müzakirə olunur. Ancaq hələ də bu tip verilişlər efirlərdən nümayiş olunur.

"Uzun illərdir bu mövzuda danışılır. Ailə mövzularının ictimailəşməsinə qarşı tənqidlər olsa da, telekanallar bu cür davam edirlər. Ona görə də televiziyaların proqram siyasəti dəyişməlidir".

Teletənqidçi deyir ki, televiziyalarda əyləncəli verilişlər də olmalıdır:"Axşama qədər ancaq xəbər və ya şou vermək olmaz. Televiziya pul tələb edir. Reklam üçün verilişin reytinqi olmalıdır. Bunun üçün də televiziyalar sahibkarlıq subyektlərindən maddi baxımdan, reklam mənasında asılıdırlar. Təbii ki, şou proqramlar olmalıdır. Amma keyfiyyətli olmalıdır. Mən bu məsələdə çıxış yolunu peşəkarlığın artırılmasında görürəm".

Q. Məhərrəmli bildirir ki, kommersiya məqsədi olan yerdə yaxşı veriliş hazırlamaq çətindir.

Müsahibimiz efirdə müğənnilərin ailə məsələlərinin gündəmə gətirilməsinin, onların şəxsi həyatı ilə bağlı aparıcılar tərəfindən şantaj olunmasının yolverilməz olduğunu söyləyir. Q. Məhərrəmli bunun ekran qarşısında olan yeniyetmə və gənclərin, uşaqların tərbiyəsinə təsir etdiyini bildirir.

"Hazırda bəzi telekanallarda elə verilişlər var ki, aparıcı həm layihənin rəhbəridir, həm də verilişin aparıcısıdır. Aparıcı verilişə tam nəzarət edəndə ciddi problem yaranır. Telekanal rəhbərliyi, məsul şəxslər də verilişə nəzarət etməlidir. Yoxsa hər şey aparıcının ixtiyarına verilərsə efirə nəzarət itər. Aparıcı verilişə gələcək müğənniləri, səslənəcək ifaları özü seçərsə, onlarla efirdə istədiyi kimi davranarsa, bu peşəkarlıqdan uzaqdır. Belə halların qarşısı mütləq alınmalıdır!" deyə Q. Məhərrəmli bildirib.

Həmsöhbətimiz əlavə edib ki, televiziya məkanında etik normaların qorunması üçün müvafiq qurumların nəzarət mexanizmləri daha da gücləndirilməlidir. Yayım siyasətində ictimai maraq əsas götürülməli, reytinq xatirinə cəmiyyətin mənəvi dəyərlərinə zidd məzmunun təqdim olunmasına yol verilməməlidir:" Televiziya yalnız əyləncə vasitəsi deyil, həm də ictimai rəyə və gənc nəslin formalaşmasına təsir edən mühüm informasiya platformasıdır. Bu baxımdan efirdə yayımlanan hər bir veriliş maarifləndirici və tərbiyəvi funksiyanı da nəzərə almalıdır. Televiziya sahəsində çalışan aparıcı və redaktorların peşə hazırlığına xüsusi diqqət yetirilməlidir. Media etikası, ünsiyyət mədəniyyəti və psixoloji yanaşma sahəsində biliklərin artırılması efir mədəniyyətinin yüksəlməsinə töhfə verə bilər. Reytinq uğrunda mübarizə çox zaman məzmunun səviyyəsinin aşağı düşməsinə səbəb olur. Halbuki uzunmüddətli perspektivdə tamaşaçı etibarını qazanan məhz keyfiyyətli və məsuliyyətli yayım siyasətidir. Keyfiyyətsiz və etik çərçivədən kənar verilişlərə maraq azaldıqca, telekanallar da proqram siyasətini yenidən nəzərdən keçirməyə məcbur qalacaqlar. Televiziya təkcə kommersiya platforması deyil, həm də ictimai məsuliyyət daşıyan informasiya vasitəsidir. Bu baxımdan efirdə yayımlanan hər bir veriliş cəmiyyətin mənəvi dəyərlərinə, milli mentalitetə və etik normalara uyğun olmalıdır".

***Gülayə Mecid***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**

Azərbaycan Milli Qeyri-Hökumət Təşkilatları Forumu

## QHT Forumundan bəyanat: "Bu, terror aktıdır"

***"Bu gün İran İslam Respublikasının Silahlı Qüvvələri tərəfindən Azərbaycan Respublikasının Naxçıvan bölgəsinə dron hücumlarının edilməsi Azərbaycana münasibətdə nankorluq, xəyanət və riyakarlıq nümunəsi olmaqla, terror aktıdır".***

Bu, Azərbaycan Milli QHT Forumunun yaydığı bəyanatda əksini tapıb. Bildirilib ki, Naxçıvanda hava limanı və orta məktəbin hədəfə alınması göstərir ki, məqsəd dinc əhali və mülki infrastruktura ziyan vurmaqdır: "Nəticədə 4 nəfər mülki şəxs - 1986-cı il təvəllüdlü Reyhanə Vəliyeva, 1996-cı il təvəllüdlü Mehdi Əsgərov və Zülfüqar Zülfüqarlı, 1998-ci il təvəllüdlü Əsəd Cəfərov yaralanıb, hava limanı və orta məktəb binaları zərər çəkib.

Hazırda Azərbaycanın əsas hissəsini Naxçıvan MR ilə yalnız hava nəqliyyatı bağladığından İran, aeroportu sıradan çıxartmaqla, bu əlaqəni tam kəsmək istəyib. Bu çirkin metod bizə 90-cı illərdə Ermənistanın Naxçıvana hücumlarından yaxşı məlumdur.

İran daim qonşuluq prinsiplərinə sadiq qalan, dar günün dostu olan, ərazisindən heç vaxt qonşu ölkələr əleyhinə istifadəyə icazə verməyən Azərbaycana hücum etməklə böyük səhvə yol verdi.

Mülki infrastruktura dron hücumu təşkil etmək acizlik, qorxaqlıq, zəiflikdir. Azərbaycana hücum edənlərin aqibəti məlumdur, İran da bu qorxaq, cılız əməlinə görə peşman olacaq.

Molla rejimi unutmamalıdır ki, əhalisinin böyük əksəriyyətini canı canımızdan, qanı qanımızdan olan soydaşlarımız - azərbaycanlılar təşkil edir, Təbrizin, Ərdəbilin və digər tarixi Azərbaycan şəhərlərinin ürəyi bizimlədir, onlar bunа sıradan hadisə kimi baxmayacaq və dözməyəcək. Baş vermiş hadisəyə görə məsuliyyət tam şəkildə İranın üzərindədir".

Qeyd edək ki, Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikasına İran İslam Respublikasının ərazisindən dron hücumları həyata keçirilib. 1 ədəd dron Naxçıvan Muxtar Respublikasının Hava Limanının terminal binasına, digər bir dron isə Şəkərabad kəndində məktəb binasının yaxınlığına düşüb. Hava Limanının binasına zərər dəyib, 4 nəfər xəsarət alıb.

## Azərbaycanda nə qədər aktiv vergi ödəyicisi var?



***Ölkədə aktiv vergi ödəyicilərinin sayı 860 minə yaxınlaşıb.***

"Unikal" xəbər verir ki, bunu "Vergi sistemində gələcəyə baxış: Yeni idarəetmə modeli və data əsaslı qərarlar" adlı forumdakı çıxışında Dövlət Vergi Xidmətinin rəisi Orxan Nəzərli deyib.

"Ötən ilin nəticələrinə görə, könüllü əməletmə göstəricimiz 92,6 faiz təşkil edir. Qeyd etmək istərdim ki, 2019-cu illə müqayisədə bu göstərici mütləq ifadədə 2,1 dəfə artıb. İqtisadi fəallığın əsas göstəricilərindən biri olaraq, 2025-ci il ərzində aktiv vergi ödəyicilərinin sayı 6,5 faiz artaraq 860 minə yaxınlaşıb. Bu, 2019-cu illə müqayisədə 73,2 faiz çoxdur", - deyə xidmət rəisi vurğulayıb.

09_27 IYUl-QARA.qxd 3/5/2026 11:08 PM Page 13



# 2025-ci ildə Yevlax şəhərində "Ümumi məhsul və əhalinin gəlirləri" belə olub




***2025-ci ildə rayon iqtisadiyyatının əsas sahələri üzrə istehsal olunmuş məhsul və xidmətlərin ümumi həcmi əvvəlki ilə nisbətən faktiki qiymətlərlə 57502,2 min manat və ya real ifadədə 12,6 faiz artaraq 513002,1 min manat olmuşdur.***

ÜMB-ın 61,6 faizi və ya 315813,2 min manatı istehsal, 38,4 faizi və ya 197188,9 min manatı isə xidmət sahələrində yaranmışdır.

Mal və xidmətlərin faktiki qiymətlərlə buraxılışı sənaye sahəsində 36962,3 min manat və ya ümumi məhsul buraxılışının həcmində xüsusi çəkisi 7,2 faiz, kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahəsində 188536,3 min manat və ya 36,8 faiz, tikinti sahəsində 90314,6 min manat və ya 17,6 faiz, ticarət, nəqliyyat vasitələrinin təmiri sahəsində 178883,0 min manat və ya 34,9 faiz, nəqliyyat və anbar təsərrüfatı sahəsində 13477,4 min manat və ya 2,6 faiz, informasiya və rabitə sahəsində 4828,5 min manat və ya 0,9 faiz olmuşdur.

*Hazırladı,*
*Yevlax Şəhər Statistika İdarəsinin rəisi*
*Saleh Cəfərov*

# Siyəzən rayonu üzrə bəzi demoqrafik göstəricilər haqqında

***2026-cı il yanvar ayının 1-i vəziyyətinə Siyəzən rayonu üzrə əhalinin sayı 42229 nəfər olmuşdur.***




2025-ci ildə rayonda 438 nəfər doğulan körpə qeydə alınmış və əhalinin hər 1000 nəfərinə bu göstərici 10,4 təşkil etmişdir.

2025-ci ildə 280 ölüm halı qeydə alınmış və əhalinin hər 1000 nəfərinə 2024-cü il ilə müqayisədə 6,0-dan 6,6-ya qədər artmışdır.

2025-ci ildə rayonda 208 nikaha daxilolma və 101 boşanma halları qeydə alınmış, əhalinin hər 1000 nəfərinə 2024-cü il ilə müqayisədə nikahların sayı 5,3-dən 4,9-a qədər azalmış, boşanmaların sayı isə 1,9-dan 2,4-ə qədər artmışdır.

*Kamil Xəlilov,*
*Siyəzən Rayon Statistika İdarəsinin rəisi*

# 2025-ci ildə Ağdaş rayonunda nəqliyyatın əsas göstəriciləri

***2025-ci il ərzində nəqliyyat və anbar təsərrüfatı sahəsi üzrə məhsul buraxılışı əvvəlki ilə nisbətən müqayisəli qiymətlərlə 19,9 faiz artaraq 9388,9 min manat olmuşdur. Nəqliyyat və anbar təsərrüfatı sahəsi üzrə məhsul buraxılışının 8904,5 min manatı, 94,8 faizi fiziki şəxslərin payına düşmüş və əvvəlki illə müqayisədə 27,8 faiz və ya 1939,4 min manat artmışdır.***

Fiziki şəxslər tərəfindən yerinə yetirilmiş iş və xidmətlərin 3435,2 min manatı və ya 38,6 faizi yük daşınmasının, 5469,3 min manatı və ya 61,4 faizi isə sərnişin daşınmasının payına düşmüşdür. Əvvəlki ilə nisbətən 2025-ci ildə fiziki şəxslər üzrə məhsul buraxılışının ümumi həcmində yük daşınması 5,4 faiz və ya 174,6 min manat, sərnişin daşınması isə 47,6 faiz və ya 1764,8 min manat artmışdır.

2025-ci ildə avtomobil nəqliyyatı ilə 1166,0 min ton yük, 14458,0 min sərnişin daşınmışdır. Əvvəlki ilə nisbətən yük daşınması 5,8 faiz və ya 64,0 min ton, sərnişin daşınması isə 6,1 faiz və ya 833,0 min sərnişin artmışdır.

*Ağdaş Rayon Statistika İdarəsi*

## ELAN

FHN, Kiçikhəcmli Gəmilərə Nəzarət və Sularda Xilasetmə Dövlət Xidməti tərəfindən Məmiyev Elçin Bəhlul oğluna verilmiş AA 08708 (bort nömrəsi ABA-1111) nömrəli gəmi bileti itdiyi üçün etibarsız sayılır.

# "Azərbaycan regional və qlobal miqyasda etibarlı tərəfdaşdır" - Deputat

***"Son on iki il ərzində qlobal enerji bazarının müxtəlif böhranlar, siyasi gərginliklər və iqtisadi çətinliklərlə üzləşdiyi inkarolunmaz faktdır. Lakin bütün bunlara baxmayaraq, Azərbaycan və tərəfdaşları Avropanın enerji təhlükəsizliyini real təminat mexanizminə çevirə bildilər".***



Bunu "Unikal"a açıqlamasında Milli Məclisin deputatı Kamaləddin Qafarov deyib. O, bildirib ki, martın 3-də Bakı Konqres Mərkəzində keçirilən Cənub Qaz Dəhlizi və Yaşıl Enerji Məşvərət Şuralarının iclasları da bütün mürəkkəb geosiyasi reallıqlara rəğmən, ötən dövr ərzində formalaşmış dayanıqlı əməkdaşlıq modelini bir daha nümayiş etdirdi. "Cənab Prezident İlham Əliyev tədbirdə etdiyi çıxışında son on iki ilin təcrübəsinə nəzər salaraq bildirdi ki, çətinliklərə baxmayaraq, bir sıra ölkələrin enerji təminatı artıq gündəlik həyatın sabit elementinə çevrilib. Bu fikir göstərir ki, layihə yalnız kommersiya deyil, sosial sabitlik amilidir. Enerji çatışmazlığı yaşayan ölkələr üçün davamlı təchizat iqtisadi artımın və ictimai rifahın əsas şərtidir".

K.Qafarov Prezident İlham Əliyevin yaşıl enerji gündəliyi ilə bağlı səsləndirdiyi fikirlərin önəmini xüsusi qeyd edib: "Dövlət başçımızın qeyd etdiyi kimi, istehsalçı, tranzit və istehlakçı ölkələr arasında formalaşmış qarşılıqlı fayda prinsipi hər bir layihənin uğurunun əsas dayağıdır. Azərbaycanın iştirak etdiyi meqalayihələrdə isə, bu model klassik enerji münasibətlərindən fərqli olaraq, daha çox tərəfdaşlıq ruhuna əsaslanır. Məhz bu səbəbdən Cənub Qaz Dəhlizi artıq tam gücü ilə işləyir və mövcud infrastruktur artan tələbat fonunda genişləndirilmə perspektivləri ilə müzakirə olunur. Yeni interkonnektorlar və əlavə ötürücülük imkanları isə gələcək illərdə layihənin əhatə dairəsini daha da genişləndirə bilər. Bununla yanaşı, enerji siyasətində yaşıl gündəliyin ön plana çıxması xüsusi diqqət çəkir. Cənab Prezident xüsusi olaraq belə bir mühüm məqamı da diqqət mərkəzinə çəkdi ki, regionun indiyədək ən böyük - 240 meqavat gücündə külək elektrik stansiyasının istifadəyə verilməsi Azərbaycanın enerji keçidinə sadiqliyini nümayiş etdirir. Layihənin ACWA Power tərəfindən maliyyələşdirilməsi və icrası isə beynəlxalq investorların ölkəyə olan etimadının göstəricisidir. Bu, ənənəvi enerji ixracatçısı olan Azərbaycanın paralel olaraq bərpaolunan enerji mərkəzinə çevrilmək niyyətini ortaya qoyur. Təbii ki, strateji baxımdan mühüm məqamlardan biri də ABŞ ilə münasibətlər kontekstində imzalanmış Strateji Tərəfdaşlıq Xartiyasının praktik nəticələridir. Bu sənəd enerji ilə yanaşı süni intellekt, nəqliyyat bağlılığı və digər sahələri əhatə etməklə əməkdaşlığın çoxşaxəli xarakter aldığını göstərir. Prezident İlham Əliyev məhz bu çərçivədə reallaşan layihələrin artıq konkret nəticələr verdiyini də diqqətə çatdırdı. Beləliklə, Cənub Qaz Dəhlizi və Yaşıl Enerji Məşvərət Şuraları paralel inkişaf edən iki istiqaməti təcəssüm etdirir. Bunlardan biri ənənəvi enerji təhlükəsizliyinin möhkəmləndirilməsi, digəri dayanıqlı enerji keçidinin sürətləndirilməsidir. Azərbaycan isə hər iki sahədə təşəbbüskar rolunu qoruyaraq regional və qlobal miqyasda etibarlı tərəfdaş imicini gücləndirir" .

# 2025-ci ildə Goranboyda sənayenin əsas göstəriciləri

***2025-ci ildə sənaye müəssisələri və bu sahədə fəaliyyət göstərən fərdi sahibkarlar tərəfindən 52970,5 min manatlıq və ya 2024-cü illə müqayisədə 21,9 faiz çox sənaye məhsulu istehsal edilmiş və sənaye xarakterli xidmətlər göstərilmişdir.***

Sənaye məhsulunun 26101,9 min manatı və ya 49,3 faizi emal, 6194,3 min manatı və ya 11,7 faizi mədənçıxarma, 19407,4 min manatı və ya 36,6 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, 1266,9 min manatı və ya 2,4 faizi isə su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorlarında istehsal olunmuşdur.

Sənayedə qeyri-dövlət sektorunun payı 61,0 faiz olmuşdur. Ümumi istehsalın 61,0 faizi sənaye məhsullarının istehsalı, 39,0 faizi isə sənaye xarakterli xidmətlərin göstərilməsi hesabına yaradılmışdır.

**Qrafik 1**
**2025-ci ildə iqtisadi fəaliyyət növlərinə görə sənayenin strukturu**




Əvvəlki illə müqayisədə mədənçıxarma sənayesində 0,2 faiz, elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sahəsində 29,7 faiz, emal sənayesində 3,4 dəfə çox, su təchizatı və tullantıların təmizlənməsi sahəsində isə 38,7 faiz azalma olmuşdur.

2025-ci ildə istehsal edilmiş emal sənayesinin əsas hissəsini tikinti materiallarının istehsalı təşkil edərək 17574,4 min manat məhsul olmuş və emal sənayesi məhsulunun 67,3 faizini təşkil etmişdir. 2024-cü illə müqayisədə tikinti materiallarının istehsalında isə 4,6 dəfə artım müşahidə olunmuşdur.

İstehsal edilmiş məhsulun böyük hissəsi istehlakçılara göndərilmiş, əvvəlki dövrlərdə yaranmış ehtiyatlar da nəzərə alınmaqla sənaye müəssisələrinin anbarlarında 01 yanvar 2026-cı il vəziyyətinə 3670,9 min manatlıq hazır məhsul olmuşdur.

Sənaye müəssisələri tərəfindən əhaliyə göstərilmiş xidmətlərin həcmi 11156,9 min manat təşkil etmişdir.

*Goranboy rayon Statistika İdarəsi*

# Ruslan Vətənini canından əziz tutdu

***Ruslan Sakit oğlu İbadlının da qismətinə bəşər övladı üçün ən ali məqam sayılan şəhidlik yazıldı. 44 günlük haqq savaşımızda qazanılan qələbəmizin qəhrəmanlıq simvoluna dönərək 25 yaşında əbədi olaraq ürəklərə köçdü.***

Biləsuvar rayonu, Nəsimikənd kəndində dünyaya göz açan qəhrəman oğlu ilə indi bütün Azərbaycan fəxr edir, keçdiyi şərəfli həyat yolu gənclərə örnək göstərilir. Vətənimizin qeyrətli oğlu Ruslan İbadlının mübarizə meydanında misilsiz şücaəti həm də ölümündən sonra dövlət tərəfindən "Vətən uğrunda", "Cəsur döyüşçü, Füzuli və Cəbrayılın azadlığına görə medallarla təltif olundu.



Vətəninə, torpağına, yaşadığı yurd yerinə sevdalı boya-başa çatan Ruslan İbadlı orta məktəbi başa vuranda əsas amalı Azərbaycanın müqəddəs parçası-Qarabağımızı işğal edən yağıdan qisas almaq olub. Məhz buna görə də ordu sıralarına yola düşəndə öz yerini səngərdə görüb. Qohum-qonşu qarşısında isə müharibə olarsa, düşmənlə sona qədər döyüşüb qisas alacağına and içib.

Ruslan elə əyninə hərbi formanı cəbhə bölgəsində geyinib. Burada əlinə silah götürüb Vətənin keşiyində durmağı özünə şərəf bilib. Göstərdiyi nümunəvi xidməti, nizam-intizamı qısa zamanda ona hörmət qazandırıb. Komandirlərin verdiyi tapşırıqları yerinə yetirəndə fədakarlıq, mərdlik Ruslana yoldaşlıq edib. Həmçinin müxtəlif təlimlərə qoşulmaqla hərb sənətinin sirlərini öyrənib. Ən əsası ona etibar olunan silahla davranma qaydalarını dərindən mənimsəyib. Hər qarşı torpağını canı qədər istəyən Ruslanın bacarığı, qabiliyyəti onu zabitlərin, əsgərlərin sevimlisinə çevirib.

Hər əməlində xalqına layiqli övlad olduğu bilinən Ruslan İbadlı Vətən qarşısında oğulluq borcunu şərəflə başa vurub. Erməni dığalardan alacağı öcə görə müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu kimi döyüş gününü gözləyib. 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistana 30 il əsir düşən ərazilərin azadlığı üçün başlanan haqq savaşımızın birinci günü elə odun-alovun içinə girib. Mərdliklə vuruşub, neçəneçə çətin döyüşlərin qalibi olub. Həmçinin öz igidliyi sayəsində əsgərlər arasında ruh yüksəkliyi yaradıb, onlarda doğma Vətənə məhəbbət hissi aşılamaqla inamla qələbəyə doğru gediblər. Dığaların alınmaz saydığı bir neçə postunu, hərbi texnikasını ələ keçirib. Cəbrayılda gedən ağır müharibə meydanında həmişəki kimi, yenə də qalib olmaq istəyi ilə yağıya qarşı çıxıb. Onun endirdiyi sarsıdıcı zərbələri nəticəsində böyük itkilərlə məğlub olan düşmən geriyə qaçmağa üz qoyub. Təəssüf ki, özünü də düşmən gülləsindən qoruya bilməyib və Vətən eşqi ilə döyünən ürəyi dayanıb. Torpaq uğrunda axıtdığı qızıl qanı Ruslanı əbədiyyətə qovuşdurub.

Ruslan İbadlı ömrünün ən gözəl çağında bizi cismən tərk edib. Qaldı ki, qısa ömrü onu ürəklərdə yaşatmaq üçün torpağına, Vətəninə sonsuz məhəbbət mücəssəməsinə döndərib.

***Zəfər Orucoğlu,***
***Azərbaycan Jurnalistlər Birliyinin üzvü***

# Milli Kitabxanada "Əməkdar elm xadimi Yaşar Qarayev - 90 " adlı kitab sərgisi keçirilib

***5 mart 2026-cı il tarixində Milli Kitabxanada görkəmli tənqidçi və ədəbiyyatşünas, Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvi, Dövlət mükafatı laureatı, Əməkdar elm xadimi Yaşar Qarayevin anadan olmasının 90 illik yubileyi münasibətilə "Əməkdar elm xadimi Yaşar Qarayev - 90" adlı kitab sərgisi istifadəçilərə təqdim olunub.***

Sərgidə alimin əsərləri, məqalələri, müsahibələri, məruzə və çıxışlarından ibarət seçilmiş əsərləri, redaktor, ön söz, tərtibçi və rəyçi olduğu kitablar, həmçinin həyatı, çoxşaxəli ədəbi-elmi yaradıcılıq yolu haqqında ədəbiyyatlar, elmi, publisistik məqalələr və xatirələrdən ibarət nəşrlər nümayiş olunur.

Yaşar Vahid oğlu Qarayev 1936-cı il mart ayının 5-də Şəki şəhərində anadan olub. 1946-cı ildə ailəsi ilə birlikdə Bakıya köçüb, burada 31 nömrəli şəhər orta məktəbini bitirib. 1954-1958-ci illərdə Azərbaycan Dövlət Universitetinin (indiki Bakı



Dövlət Universiteti) filologiya fakültəsində təhsil alıb.

1959-cu ildən Akademiyada əmək fəaliyyətinə başlayan alim Nizami adına Ədəbiyyat Dil İnstitutunun şöbə müdiri (1975-1981), elmi işlər üzrə direktor müavini (1981-1985), daha sonra direktoru vəzifələrində çalışıb. 38 monoqrafik tədqiqat əsərinin və ədəbi-tənqidi məqalələr məcmuəsinin, 500-dən artıq məqalənin müəllifidir.

Ədəbi fəaliyyətə 1955-ci ildə "Lenin tərbiyəsi uğrunda" və "Azərbaycan gəncləri" qəzetlərində çıxışlarla başlayıb. Onun tədqiqat obyekti ədəbiyyatşünaslıq, ədəbi tənqid, ədəbiyyat tarixçiliyi, teatrşünaslıq, estetika və humanitar elmlərin nəzəri-metodoloji problemlərini əhatə edir.

Alim "Ədəbi proses" adlı illik elmi-tənqidi məcmuənin təşəbbüsçüsü, müəlliflərindən biri və məsul redaktoru olub. Onun "Şərqin dahisi", "Tənqid: problemlər, portretlər", "Azərbaycan ədəbiyyatında faciə janrı", "Tarix: yaxından və uzaqdan" kimi əsərləri ədəbiyyatşünaslıqda mühüm yer tutur. Yaşar Qarayev həmçinin respublikanın elmi və ədəbi-mədəni həyatında da fəal iştirak edib.

Yaşar Qarayev 1980-ci ildə Azərbaycan Dövlət mükafatı laureatı seçilib, 1982-ci ildə isə "Əməkdar elm xadimi" fəxri adına, "Məmməd Araz", "Həsən Turabov" mükafatlarına, "Əmək rəşadətinə görə" medalı ilə təltif olunub.




# 2025-ci ildə Qusarda iqtisadiyyatın əsas sahələri üzrə məhsul buraxılışı

***2025-ci ildə fəaliyyət göstərən müəssisə, təşkilat və fərdi sahibkarlar tərəfindən 471148,8 min manatlıq məhsul istehsal olunmuşdur.***

Əlavə dəyər kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahəsində 6,9 faiz, nəqliyyat və anbar təsərrüfatı sahəsində 31,0 faiz, informasiya və rabitə sahəsində 44,8 faiz, ticarət; nəqliyyat vasitələrinin təmiri sahəsində 0,2 faiz artmış, sənaye sahəsində 14,7 faiz və tikinti sahəsində 20,7 faiz azalmışdır.

Ümumi məhsul istehsalının 6,1 faizi sənaye, 54,0 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 16,7 faizi tikinti, 2,0 faizi nəqliyyat və anbar təsərrüfatı, 1,0 faizi informasiya və rabitə, 20,2 faizi isə ticarət; nəqliyyat vasitələrinin təmiri sahələrinin payına düşmüşdür.

**01.01.2026-cı il tarixinə rayonda iqtisadiyyatın əsas sahələri üzrə məhsul buraxılışı**

**min manat**

| | 2025-ci il (faktiki qiymətlərlə), min manatla | 2024-cü il (faktiki qiymətlərlə), min manatla | Fiziki həcm indeksi, faizlə |
|---|---|---|---|
| Sənaye | 28765,6 | 29198,0 | 85,3 |
| Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq | 254323,2 | 221205,7 | 106,9 |
| Tikinti | 78742,3 | 99261,7 | 79,3 |
| Nəqliyyat və anbar təsərrüfatı | 9371,3 | 7047,2 | 131,0 |
| İnformasiya və rabitə | 4851,5 | 3330,3 | 144,8 |
| Ticarət; nəqliyyat vasitələrinin təmiri | 95094,9 | 90204,0 | 100,2 |
| **Yekun:** | **471148,8** | **450246,9** | **98,8** |

***Qusar Rayon Statistika İdarəsinin rəis müavini Rafik Mahmudov***

# Ağdaşda 2025-ci ildə pərakəndə ticarət dövriyyəsinin əsas göstəriciləri belə olub




***2025-ci ildə ticarət şəbəkələrində əhaliyə faktiki qiymətlərlə 471611,3 min manatlıq və ya əvvəlki ilə nisbətən müqayisəli qiymətlərlə 1,3 faiz az istehlak malları satılmışdır.***

Satılmış istehlak mallarının 15,8 faizi hüquqi şəxslərin, 84,2 faizi isə fərdi sahibkarlar, bazar və yarmarkaların payına düşmüşdür. Fərdi sahibkarlar, bazar və yarmarkalar üzrə əmtəə dövriyyəsinin 21,2 faizi fərdi sahibkarlara, 78,8 faizi isə bazar və yarmarkalara aid olmuşdur.

Hesabat dövründə pərakəndə ticarət şəbəkələrində satılmış məhsulların 56,0 faizini ərzaq məhsulları, içkilər və tütün məmulatları, 44,0 faizini qeyri-ərzaq məhsulları təşkil etmişdir.

2025-ci ildə ticarət; nəqliyyat vasitələrinin təmiri üzrə məhsul buraxılışı faktiki qiymətlərlə 150915,6 min manat və ya əvvəlki ilə nisbətən müqayisəli qiymətlərlə 1,3 faiz az olmuşdur.

***Ağdaş Rayon Statistika İdarəsi***

09_27 IYUl-QARA.qxd 3/5/2026 11:09 PM Page 15



# İrandakı müharibə bu aya qədər davam edə bilər



***ABŞ İrana qarşı əməliyyatı ən azı 100 gün, bəlkə də sentyabr ayına qədər həyata keçirməyi planlaşdırır.***

"Unikal" xəbər verir ki, bu barədə Amerikanın "Politico" nəşri yazıb.

Qeyd olunur ki, ABŞ Mərkəzi Komandanlığı Pentaqondan Florida ştatının Tampa şəhərindəki qərargahına daha çox hərbi kəşfiyyat zabiti göndərməsini xahiş edir.

"Bu, administrasiyanın İran müharibəsi üçün əlavə kəşfiyyat heyətinə dair ilk məlum çağırışıdır və Pentaqonun artıq Prezident Donald Trampın münaqişə üçün ilk dörd həftəlik müddətindən çox uzana biləcək əməliyyatlar üçün maliyyə ayırdığına işarədir", - deyə KİV qeyd edib.

***Gülayə Mecid***

# "Yeni liderin seçilməsi prosesi başa çatır" - Ayətullah Qumi

***İranda yeni liderin seçilməsi prosesi başa çatır.***

"Unikal" xəbər verir ki, bu barədə İran Ekspertlər Şurasının üzvü Ayətullah Möhsün Qumi deyib.

Onun sözlərinə görə, şura ona həvalə olunmuş vəzifələri yerinə yetirir: "Yeni liderin seçilməsi prosesi Ekspertlər Şurasının daxili qaydalarında yer alan əsas hüquqi prinsiplər və qaydalar əsasında tamamlanır və kibermәkanda dərc olunan fərziyyələr əsassızdır. Konstitusiyanın 111-ci maddəsinə əsasən, Ekspertlər Şurasının rəhbəri təyin etmək və onu mümkün qədər tez xalqa təqdim etmək vəzifəsi var, ona görə də bu məsələdə gecikmə olmamalıdır".

***Ağarza Elçinoğlu***

# "Sona qədər davam edin - biz sizinləyik!" - ABŞ-dən İsrailə

***İsrailin müdafiə naziri Israel Katz Pentaqon rəhbəri Pit Heqset ilə telefonla danışıb.***

"Unikal" xarici KİV-ə istinadən xəbər verir ki, Katz altı amerikalı hərbçinin ölümü ilə bağlı amerikalı həmkarına başsağlığı verib və İsrailin bölgədəki Amerika qüvvələrinin təhlükəsizliyini təmin etmək üçün əlindən gələni edəcəyini bildirib. Heqset Katz ilə söhbətində "Sona qədər davam edin - biz sizinləyik", - deyib.

Qeyd edək ki, fevralın 28-dən etibarən ABŞ və İsrail İran ərazisinə hücuma keçib. Buna cavab olaraq isə, İran da İsrailə və ABŞ hərbi bazalarının yerləşdiyi ölkələrə raketlər atıb.

***Gülayə Mecid***

# Tərəflərin ataşkəsə qayıtması vacibdir" - Makron

***"Bu gün İsrailin Baş naziri Benyamin Netanyahu, eləcə də prezident Cozef Aun və Livanın Baş naziri Nəvaf Salamla Livandakı vəziyyətlə bağlı fikir mübadiləsi aparmaq üçün danışdım".***

"Unikal" xəbər verir ki, bu barədə Fransa prezidenti Emmanuel Makron X hesabında yazıb.

Makron İsrailin baş naziri Binyamin Netanyahunu Livanda quru əməliyyatları aparmaqdan çəkinməyə çağırıb: "Mən Hizbullah"ın İsrailə və ondan kənara hücumlarının dərhal dayandırılmasının vacibliyini bir daha təkrarladım. Gərginliyi artırmaq strategiyası bütün regionu təhlükəyə atan ciddi bir səhvdir. Mən həmçinin İsrail Baş nazirini Livanın ərazi bütövlüyünü qorumağa və quru əməliyyatları aparmaqdan çəkinməyə çağırdım. Tərəflərin ataşkəs razılaşmasına qayıtması vacibdir. Livanın cənubundakı humanitar fövqəladə vəziyyətə cavab olaraq, Fransa məcburi köçkün Livan əhalisini dəstəkləmək üçün təcili tədbirlər görəcək. Livan xalqı ilə həmrəyliyimiz və regional sabitliyə sadiqliyimiz hərəkətlərimizin mərkəzində qalır".

***Ağarza Elçinoğlu***

# "Amerikanın buynuzunu qırmaqda qərarlıyıq" - İranın briqada generalı

***"Bu gün müharibənin komandanlığı Xatəmül-Ənbiya Mərkəzi Qərargahının məsuliyyətindədir. Bu qərargahda biz əməliyyat planları hazırlayırıq. Ordu və SEPAH tərəfindən təqdim edilən planları təsdiqləyir, həyata keçirilməsi üçün onlara bildiriş göndəririk və nəticədə əməliyyatlara rəhbərlik edirik".***



"Unikal" xəbər verir ki, bunu Xatəmül-Ənbiya mərkəzi qərargahının komandir müavini, İranın briqada generalı Kiyomərs Heydəri deyib.

Heydəri düşmən tamamilə məhv edilib təslim olana qədər bu əməliyyatların davam edəcəyini vurğulayıb: "Müharibənin neçə gün davam etməsinin bizim üçün fərqi yoxdur. Biz 8 illik müharibə yaşamışıq. Məqsədlərimizə çatdıqdan, düşməni öz rüsvayçı hərəkətindən peşman etdikdən və ümidsiz hala saldıqdan sonra bu müharibəyə son qoyacağıq.

Həqiqətən də, sionist rejimin bir çox xiyaban, küçə və yerləri Qəzzanın xiyabanlarına və küçələrinə bənzəyib.

Bu gün biz amerikalılarla tarixi bir döyüşdəyik, Amerika ordusunun mövcudluğu dönəmində heç vaxt yaşamadığı utancverici bir müharibədəyik.

Raket hücumlarımız İran İslam Respublikası ordusunun strateji dronlarından istifadə etməklə həyata keçirilir. Bununla yanaşı, Amerika ilə dənizdə, havada və kosmosda ağır döyüş gedir.

Amerikalılar çox ağır və təəssüf doğuran bir cəza alacaqlar və onlar bilməlidirlər ki, İslam döyüşçülərindən güclü şillə alıblar və alacaqlar. Biz onları bölgədən təəssüf və məyusluqla qovacağıq.

Allahın lütfü ilə Amerikanın buynuzunu qırmaqda və Amerikanı məyus etməkdə qərarlıyıq. Bu müharibədən əl çəkməyəcəyik".

General İranın Hörmüz boğazını bağlamadığını da açıqlayıb: "Biz Hörmüz boğazını bağlamamışıq və bu boğaz müharibənin daha geniş səhnəsində kiçik bir tapmacadır. Deyə bilərik ki, amerikalılar Hörmüz boğazını bağlayıblar.

Biz Hörmüz boğazında dəniz suverenliyimizi həyata keçiririk. Beynəlxalq protokollara uyğun gəmilərlə normal davranışımız var və onlarla heç bir problemimiz yoxdur. Lakin, laqeyd qalan və ya kommersiya örtüyü altında hərbi əməliyyatlar aparan istənilən gəmini vurmaq səlahiyyətimiz var".

***Ağarza Elçinoğlu***

# Kim Çen In dünyaya belə mesaj ötürdü - "Mən də varam!"

***Yaxın Şərqdə müharibə qızışdığı bir vaxtda Şimali Koreya lideri Kim Çen In yeni "Çoe Hyon" esminesi tərəfindən buraxılan strateji kruiz raketinin sınağını izləyib.***

"Unikal" xəbər verir ki, Şimali Koreyanın dövlət mediasının məlumatına görə, sınaq zamanı atılan raketlər təyin olunmuş hədəflərə uğurla çatıb.

"Çoe Hyon" esminesi uzaqmənzilli qanadlı raketlər, hava hücumundan müdafiə sistemləri və qabaqcıl radar texnologiyaları ilə təchiz olunub.

Qeyd edək ki, Şimali Koreyanın donanmasını gücləndirmək üçün son səyləri diqqətəlayiqdir. Bu yaxınlarda təqdim edilən "Çoe Hyon" esminesi Pxenyanın dəniz gücünü modernləşdirmək proqramının əsas elementi kimi qəbul edilir. Gəmi uzaqmənzilli qanadlı raketlər, hava hücumundan müdafiə sistemləri və qabaqcıl radar texnologiyası ilə təchiz olunub.

Raket sınağını müşahidə edən Kim Çen In bildirib ki, donanmanın qarşısını alma qabiliyyətinin artırılması ölkənin müdafiə strategiyasında mühüm rol oynayır. O, xüsusilə də dənizdən uzaqmənzilli hücum imkanlarının inkişaf etdirilməsinin Şimali Koreyanın təhlükəsizliyi üçün çox vacib olduğunu qeyd edib.



Analitiklər Pxenyanın bu addımının təkcə regional deyil, həm də qlobal təhlükəsizlik balansları baxımından diqqətlə izlənildiyini bildirirlər. ABŞ və İran arasında davam edən müharibənin beynəlxalq gərginliyi artırdığı bir vaxtda keçirilən bu sınaq Şimali Koreyanın hərbi qabiliyyətlərini nümayiş etdirmək və "Mən də burdayam" mesajı göndərmək cəhdi kimi qiymətləndirilir.

Ekspertlərin fikrincə, Şimali Koreya son aylarda həm ballistik, həm də qanadlı raketlərin sınaqlarını artırmaqla hərbi qüdrətini nümayiş etdirir.

***Gülayə Mecid***

# "Qonşu ölkələrə hücum etmək niyyətimiz yoxdur" - İranlı diplomatdan ikiüzlü açıqlama

***"İranın regiondakı son hərəkətləri "özünümüdafiə" bəndi çərçivəsindədir. İranın qonşu ölkələrlə heç bir düşmənçiliyi yoxdur və onlara hücum etmək niyyəti də yoxdur".***

"Unikal" xəbər verir ki, bunu İran Xarici İşlər Nazirliyinin sözçüsü İsmayıl Bəqayi "Əl-Ərəbiyyə" televiziyasına verdiyi müsahibədə deyib.

Xarici İşlər Nazirliyinin sözçüsü qeyd edib ki, İran hərbi qüvvələri yalnız Amerika bazalarını hədəf alır.

Qeyd edək ki, İran Naxçıvana dronla zərbələr endirib. Nəticədə 2 nəfər xəsarət alıb. İranlı diplomatın bu açıqlaması Naxçıvana edilən hücumdan əvvəl olub.

Azərbaycan XİN dron hücumuna sərt reaksiya verərək, müvafiq cavab tədbirləri görmək hüququnu özündə saxladığını açıqlayıb.

Xatırladaq ki, bundan bir gün əvvəl İranın Türkiyəyə atdığı ballistik raket də havada zərərsizləşdirilmişdi.

***Ağarza Elçinoğlu***

09_27 IYUl-QARA.qxd 3/5/2026 11:09 PM Page 16



# "Xal itkilərimizin hamısı o stadionda olub" - "Şəfa"nın baş məşqçisi



***Azərbaycan 1-ci liqasında çıxış edən və hazırda lider olan "Şəfa"nın baş məşqçisi Elgiz Kərəmlinin QOL.az saytına müsahibəsi***

***- "Şəfa" 16 turdan sonra 1-ci liqada vahid liderdir. Komandanızın bu günə qədərki çıxışını necə qiymətləndirirsiniz?***

- Qış fasiləsinə qədər hər şey lap yaxşı idi. Əslində indi də pis deyil, liderik. Amma qış fasiləsindən sonra ardıcıl xallar itirdik. Həmin görüşlərdə mümkün olan xallarımızı toplasaydıq, çempionluğun taleyini böyük ölçüdə həll etmiş olardıq, gərginliyi azaldardıq. Onu da deyim ki, sözügedən oyunlarda rəqiblərimiz də güclü idi, hamısı iddialı komandalar idi. Qələbə qazanmasaq da, yenə də liderik. Xal itkilərimiz isə çempionatda gərginliyin artmasına səbəb olub. Hazırda çempionluq uğrunda güclü rəqabət var.

***- Ardıcıl heç-heçələrin ardından son turda "Difai"yə 8:1 hesabı ilə qalib gəldiniz...***

- Bəli, belə bir qələbənin bizə çox köməyi olacaq. Bəzi futbolçularımız xeyli müddətdir ki, qol vura bilmirdi. Onların qollar vurması, belə hesabla qalib gəlməsi komandada özünəinamı artıracaq və növbəti oyunda da öz təsirini göstərəcək. Düzdür, növbəti rəqibimiz heç də asan deyil. "Şahdaq Qusar"la qarşılaşacağıq. Ardıcıl 4 oyundur ki, qalib gəlirlər. Amma biz də yaxşı komandayıq. Sadəcə sırf yerli futbolçularla oynamaq bir qədər çətinlik yaradır.

***- Komandanızda legioner heç yoxdur?***

- Cənubi Azərbaycandan bir oyunçumuz var - Amir İbrahimzadə. Onu da legioner saymaq olmaz. Azərbaycan əsilli olduğuna görə deyirəm.

***- Birinci liqanın səviyyəsi necədir?***

- Birdən-birə çempionatın səviyyəsini yüksəlməyəcək. Onu deyərdim ki, ötən mövsümlə müqayisədə səviyyə ikiqat artıb. Yarışa maraq çoxalıb. Premyer Liqada legioner limitinin ləğvindən sonra klublar yerli oyunçulara az şans verir və onların bir çoxu 1-ci liqaya üz tutur. Bundan başqa artıq hər il 1-ci liqadan Premyer Liqaya yüksəlmək imkanı var ki, bu da əlavə bir rəqabət, maraq yaradıb.

***- "Şəfa" Premyer Liqaya nə dərəcədə hazırdır?***

- Bizim üçün Premyer Liqada asan olmayacaq. Çünki komandamız yenidir, Premyer Liqa təcrübəsi yoxdur. Yerli futbolçularla davam etmək, legionersiz oynamaq çətinlik yaradır. Çünki rəqiblərimizin heyəti demək olar ki, legionerlərdən ibarətdir. Bu günə qədər Premyer Liqa klubları ilə 4 oyun keçirmişik. Bunlar həm Azərbaycan kuboku, həm də yoldaşlıq oyunları olub. "Araz-Naxçıvan" və "Şamaxı" ilə heç-heçə etmişik. "İmişli"yə 80-ci dəqiqəyə qədər 1:0 qalib gəlirdik. "Qəbələ" ilə görüşdə uduzsaq da, layiqli mübarizə apardıq. Amma futbolçularımızın bəziləri o tempdə oynamağa hazır deyil.

***- Premyer Liqa klubları ilə oyunlar sizdə hansı qənaəti yaratdı?***

- Bu oyunlar gələcəyə ümid verdi, futbolçuların inamlı olmağını göstərdi. Rəqiblərdən geri qaldığımız məqam ancaq oyunun tempi ilə bağlıdır. Bu da çempionatlar arasındakı fərqlə bağlıdır. Biz də 3-4 tur Premyer Liqa səviyyəsində komanda ilə qarşılaşsaq, həmin tempi tuta bilərik.

***- "Şəfa"nın prezidenti Sərdar Salmanzadə gözlənilmədən vəzifəsindən ayrıldı. Bunun komandanıza təsiri necə ola bilər?***

- Klub prezidentinin dəyişməsi "Şəfa"nın idarəetmə strukturu ilə bağlı məsələdir. Amma klubda bir idarəetmə sistemi var və təşkilati məsələlərdə cavabdeh şəxslər öz işlərini kifayət qədər yaxşı görürlər. Bizim əsas işimiz meydanda komandanın inkişafı və nəticələridir. Ona görə gündəlik işimizə ciddi təsir edəcəyini düşünmürəm.

***- Klubun strategiyası və qarşıya qoyduğu tələblər nədən ibarətdir?***

- Hələ ki, sırf yerli futbolçularla mübarizə aparmalıyıq. Klubun strategiyasında yerli futbolçuların oynaması, inkişaf etməsi, Azərbaycan millisinə futbolçu bəxş edilməsi əsas götürülüb. Tələblərə gəldikdə isə ildən-ilə inkişaf nəzərdə tutulub. Təbii ki, ilk ilindəcə komandadan yüksək yerlər uğrunda oynamaq tələb edilməyəcək. Premyer Liqaya yüksəlsək, məqsəd elitada qalmaq və ildən-ilə inkişaf etmək olacaq.

***- Sizin klubla müqaviləniz nə vaxta qədərdir?***

- Müqaviləm var. Şərtlərdə göstərilib ki, komanda Premyer Liqaya yüksəlsə, sözləşmə artırılacaq.

***- Premyer Liqaya yüksələcəyiniz təqdirdə də sırf yerli oyunçularla mübarizə aparacaqsınız?***

- Hazırda qərar belədir. Sonra necə olacaq, bilmirik.

***- Burada maliyyə məsələsi də rol oynayır, yoxsa strategiya belədir?***

- Sırf klubun strategiyası belədir. Əslində klubun futbolçu almaq imkanı var.

***- Yəni maliyyə baxımından heç bir problem yoxdur?***

- Əlbəttə. Hər şey qaydasındadır. Maaşlar və bonuslar vaxtında verilir. Bakı Olimpiya Stadionunun ehtiyat meydançasında məşq edirik. Bircə stadionla bağlı çətinliyimiz var. Ev oyunlarımızı Binədəki stadionda keçiririk. Xal itkilərimizin hamısı da orada olub. Demək olar ki, 1-2 oyunu çıxmaq şərtilə səfərdə xal itirməmişik.

***- Mətbuatda klubun yeni stadion inşa edəcəyi ilə bağlı xəbərlər var. Bununla bağlı məsələ nə yerdədir?***

- Klubda bununla bağlı çalışırlar, amma hələlik yekun həllini tapmayıb. Ola bilər ki, Bakıda hansısa bir stadionda bərpa işləri aparılsın, oyunlarımızı orada keçirəcək. Addımlar atılır, amma hələlik dəqiqləşən bir şey yoxdur.

## Bakıda idman gimnastikası üzrə Dünya Kuboku start götürüb

***Bakıda idman gimnastikası üzrə Dünya Kuboku start götürüb.***

İdmançılar Milli Gimnastika Arenasında təşkil olunan yarışların ilk günündə təsnifat mərhələsində qüvvələrini sınayırlar. Gimnastlar sərbəst hərəkətlər, paralel qollar, halqalar, dayaqlı tullanma, müxtəlif hündürlüklü qollar proqramlarında çıxış edirlər.

Turnirdə ölkəmizi Rəsul Əhmədzadə, Aydın Əlizadə, Nikita Simonov, Dəniz Əliyeva, Nazənin Teymurova və Xədicə Abbaszadə təmsil edirlər.

30-dan çox ölkədən idmançıların mübarizə apardığı yarış martın 8-də başa çatacaq.

## İspaniya Kuboku: "Real Sosyedad" finala çıxdı



***İspaniya Kral Kubokunun yarımfinal mərhələsində "Real Sosyedad" və "Atletik" arasında cavab oyunu keçirilib.***

"Unikal" xəbər verir ki, San Sebastyandakı "Real Arena" stadionunda baş tutan qarşılaşma meydan sahiblərinin minimal qələbəsi ilə bitib - 1:0.

Görüşdə yeganə qolu "Real Sosyedad"ın hücumçusu Mikel Oyarzabal vurub. O, matçın 87-ci dəqiqəsində təyin olunan penaltini dəqiq yerinə yetirib.

Qeyd edək ki, komandalar arasında ilk oyun fevralın 11-də Bilbaodakı "San Mames Barria" stadionunda keçirilmiş və həmin görüşdə də "Real Sosyedad" 1:0 hesabı ilə qalib gəlmişdi. Beləliklə, iki oyunun nəticəsinə görə ümumi hesab 2:0 olub və San Sebastyan təmsilçisi Kral Kubokunun finalına yüksəlib.

## Futbolçu xanımlar gözəllikləri ilə heyran qoydular



***İsveçrənin "Grasshopper" komandasının qadın futbolçuları bu dəfə oyunları ilə deyil, görünüşləri ilə diqqət çəkiblər.***

"Unikal" xarici KİV-ə istinadən xəbər verir ki, sosial şəbəkədə komanda oyunçularının videosu yayımlanıb.

Video qısa müddətdə geniş auditoriyaya çatıb. Sözügedən görüntüdə "Grasshopper" xanımlarının gözəlliyini diqqət çəkib. Bir çox istifadəçi futbolçuların görnüşünü müsbət şəkildə şərh edib.

*Gülayə Mecid*

## 2-ci liqada 6 oyunun hakimləri

***Azərbaycan 2-ci liqasında 17-ci turun oyunlarının hakimləri müəyyənləşib.***

"Unikal" xəbər verir ki, matçlar adları aşağıda qeyd olunan hakimlərə tapşırılıb:

**8 mart (bazar)**

15:00. "Kür-Araz" - "Ağstafa Gəncləri"
Hakimlər: Nahid Xasıyev, Rəhman Aslanov, Cavid Ömərov, Xəlil Xəlilov
Heydər Əliyev adına İmişli şəhər stadionu

**9 mart (bazar ertəsi)**

"Şirvan" - "Quba"
Hakimlər: Rəsul Babayev, Asif Abdullayev, Rasim Axundov, Vüqar Alıyev
Şirvan OİK stadionu

**15:00. "Şəmkir" - "Xankəndi"**
Hakimlər: Kamran Əliyev, Əkbər Əliyev, Əhməd Əhmədsoy, Ceyhun Hüseynov
Şəmkir OİK stadionu

**10 mart (çərşənbə axşamı)**

15:00. "Araz Saatlı" - "Dinamo"
Hakimlər: Mahmud Bağırzadə, Anar Bədəlov, Tural Bayramov, Nail Nağıyev
Saatlı OİK stadionu

**15:00. "Göygöl" - "Sheki City"**
Hakimlər: Namiq Bəkirov, Sadiq Əliyev, Hüseyn Vəliyev, Elçin Abdullayev
Göygöl OİK stadionu

**15:00. "Ağdaş" - "Qaradağ Lökbatan"**
Hakimlər: Sənan Bayramzadə, Zakir Şükürzadə, Məmmədəli Kərimov, İrşad Aydınov
Ağdaş şəhər stadionu